# YİF və BMK-nın su təchizatı infrastrukturunun dayanıqlılıq imkanlarının genişləndirilməsi mexanizmi

# Ekoloji və Sosial idarəetmə üzrə iş planı[1]

**Mart 2024**

[1]Məsuliyyətdən imtina: BMK-nın Dayanıqlılıq üzrə iş planına dair mətn və bu ESİİP-da qeyd edilən başqa müvafiq sənədlər BMK-nın ictimai açıq mənbələrindən götürülmüşdür. Bu sənədlərin hamısına aşağıdakı keçiddən çıxmaq mümkündür: Siyasətlər və Standartlar (ifc.org) Mexanizmin Ekoloji və Sosial idarəetmə üzrə iş planının anlaşılmasında çətinliklər olduqda ingilis dilli versiya tərcümə edilmiş digər versiyalardan üstün tutulmalıdır. Bu sənəd yalnız YİF-na məlumatın təmin edilməsi üçün nəzərdə tutulmuşdur. Lütfən, nəzərə alın ki, bu sənəd sadəcə qısa xülasədir və istinad edilən siyasət və prosedurların mətnində qeyd edilən bütün müddəalara tabedir. Nəhayət, siyasətlər və prosedurların mütəmadi qaydada yenilənməsi səbəbindən bu sənəd tərtib olunduğu müddətdə qüvvədə olan siyasət və prosedurları əkd etdirir.

# Mündəricat

I. GİRİŞ .... 3

A. Mexanizmin icmalı .... 3

II. MEXANİZM VASİTƏSİLƏ EKOLOJİ VƏ SOSİAL RİSKLƏRİN İDARƏ EDİLMƏSİNƏ YANAŞMA .... 4

A. BMK-nın ekoloji və sosial dayanıqlılığa dair siyasəti .... 5

B. BMK-nın fəaliyyət standartları (2012) .... 6

1. 1-ci fəaliyyət standartı: Ekoloji və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi .... 6

2. 2-ci fəaliyyət standartı: Əmək və iş şərtləri .... 9

3. 3-cü fəaliyyət standartı: Ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin çirklənməsinin qarşısının alınması .... 9

4. 4-cü fəaliyyət standartı: İcmanın sağlamlığı, təhlükəsizliyi və mühafizəsi .... 10

5. 5-ci fəaliyyət standartı: Torpaq sahələrinin əldə edilməsi və məcburi köçürülmə .... 10

6. 6-cı fəaliyyət standartı: Bioloji müxtəlifliyin qorunması və canlı təbii sərvətlərin dayanıqlı idarə edilməsi .... 12

7. 7-ci fəaliyyət standartı: Yerli əhali .... 12

8. 8-ci fəaliyyət standartı: Mədəni irs .... 14

III. BMK-nın fəaliyyət standartlarına dair təlimat qeydləri .... 14

IV. DBQ-nun STƏM ilə bağlı təlimatları .... 15

A. STƏM ilə bağlı ümumi təlimatlar .... 15

B. Su təchizatı və sanitariya sahəsində sağlamlıq, təhlükəsizlik və ətraf mühitlə bağlı təlimatlar (2007) .... 15

V. CİNSİ BƏRABƏRLİK .... 16

VI. Cinsi istismar, zorakılıq və əsarətdən qoruma (CİZƏ) və Uşaqların müdafiəsi siyasəti .... 16

VII. LAYİHƏNİN HAZIRLANMASI VƏ HƏYATA KEÇİRİLMƏSİ ZAMANI EvəS RİSKLƏRİN İDARƏ EDİLMƏSİ 20

A. Ekoloji və sosial ekspertiza .... 20

1. Birbaşa sərmayələr .... 21

B. Ekoloji və sosial təsnifat .... 22

C. Nəzarət .... 23

VIII. İnformasiyaya Çıxış Siyasəti (İÇS) .... 23

IX. Şikayətlərə baxış proseduru .... 24

A. BMK-nın Şikayətlərə baxış mexanizmi .... 24

B. Uyğunluq üzrə Müşavir/Ombudsman .... 24

Əlavə 1. Əsas istinad sənədləri .... 26

# I. GİRİŞ

Hazırkı sənəddə YİF və BMK-nın su təchizatı infrastrukturunun dayanıqlılıq imkanlarının genişləndirilməsi mexanizminə (Mexanizm) əsasən icra edilməli olan Ekoloji və Sosial (EvəS) idarəetmə üzrə iş planı (ESİİP) təsvir edilir. ESİİP BMK-nın dayanıqlılıq strukturunun başlıca aspektləri, layihənin lazımi qaydada icrasını yönləndirəcək mövcud ekoloji və sosial idarəetmə siyasətləri və prosedurları, ekoloji və sosial risk və təsirlərin müəyyənləşdirilməsi, BMK-nın fəaliyyət standartlarındakı (FS-ları) hər hansı potensial buraxılmaların qiymətləndirilməsi, habelə Mexanizmin mənfəətindən faydalanan hər bir layihə səviyyəli müəssisə tərəfindən icra edilən layihələr üzərində monitorinq və nəzarətin icmalını təmin edir.

## A. Mexanizmin icmalı

Mexanizm su təchizatı infrastrukturunun dayanıqlılıq imkanlarının (STİDİ) yaradılmasına proqramlı yanaşma olub, su çatışmazlığı probleminin həll edilməsi, su təchizatı infrastrukturunun iqlim dəyişikliklərinin təsirlərinə qarşı dayanıqlılığının artırılması və istixana qazlarının emissiyasının azaldılmasına yönəldilmişdir. Bu yanaşma əsnasında su təchizatı və sanitariya infrastrukturunun iqlimə təsir nöqteyi nəzərindən yeni dəyərli aktiv sinfinə çevrilməsi ilə məşqul olan layihələr dəstəklənəcək. Bunun məqsədi hədəf ölkələrdə iqlim dəyişikliklərinə adaptasiya və fəsadların yüngülləşdirilməsi planlarına uyğun olan, eləcə də BMT-nin 3, 6, 7, 13, 14 və 17-ci Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına fəal dəstək verən STİDİ layihələrinə iqtisadi cəhətdən rəqabət qabiliyyətli və dayanıqlı dövlət və özəl sərmayələrin yatırılmasını yüksəltməkdir. STİDİ layihələrinə sərmayə yatırmaq yüksək miqyas və tiraj potensialı olan özəl kapitalın cəlb edilməsi ilə yaradılmış yeni biznes modellərin səmərəliliyini nümayiş etdirmək üçün imkanlar yaradacaq.

Mexanizmin tətbiqi üçün hədəf ölkələr: Azərbaycan, Çili, Kot-D'İvuar, Misir, Qabon, Hindistan, İndoneziya, Mərakeş, Pakistan, Peru, Tunis və Özbəkistan.

Proqram üzrə fəaliyyətlər iki komponentə əsaslanacaq:

1. **Özəl kapitallı dövlət müəssisələrinin (ÖKDM) strukturlaşma mexanizmi:** Mexanizm layihənin hazırlanması və müəyyənləşdirilməsi fəaliyyətləri, tranzaksiyalara dair məsləhət fəaliyyətini dəstəkləyəcək, habelə biliklərin ötürülməsi, ideyaların, tərcübələrin və alınmış dərslərin mübadiləsinə kömək edəcək bir qrantdır. Bu, özəl sektora aid iştirakçılarla bazara daha çox layihə çıxarmağa kömək edərək layihənin sistemli hazırlanması və məsləhətçi dəstəklərini təmin edəcək. Bu, layihələrin hazırlanması üçün dövlət vəsaitinin ayrılmaması və geniş miqyaslı su təchizatı layihələrinin planlaşdırılması və hazırlanması üçün müvafiq imkanların olmaması kimi başlıca maneələri aradan qaldırmağa kömək edəcək.

2. **Güzəştli maliyyələşmə mexanizmi:** Bu mexanizm münasib su təchizatı layihələri üçün dövlət və özəl sektorlara aid müəssisələrə verilə bilən kredit olub, səmərəliliklə bağlı mühüm boşluqları bağlamağa və başqa əlaqəli çətinliklərin öhdəsindən gəlməyə kömək edəcək.

Mexanizm əsasında dəstəklənən layihə növlərinə aşağıdakılar daxil olacaq:

1. **Ənənəvi su ehtiyatları:** Kütləvi su təchizatı, su doldurma stansiyaları, boru kəmərləri, su emal zavodları, paylama sistemləri və s.
2. **Tullantı suların emalı:** Kanalizasiya şəbəkələrinin tikintisi/bərpası, tullantı suların emalı zavodu və s.
3. **Qeyri-ənənəvi su ehtiyatları:** tullantı sulardan təkrar istifadə, suyun şirinləşdirilməsi və s.
4. **Qeyri-gəlirli su həcminin azaldılması:** Fiziki və ticari itkilərin azaldılması ilə bağlı layihələr:

# II. MEXANİZM VASİTƏSİLƏ EKOLOJİ VƏ SOSİAL RİSKLƏRİN İDARƏ EDİLMƏSİNƏ YANAŞMA

ESİİP (a) Ekoloji və Sosial dayanıqlılıq siyasəti, (b) Səkkiz fəaliyyət standartı, (c) BMK-nın İnformasiyaya çıxış siyasətini (İÇS) ehtiva edən dayanıqlılıq üzrə iş planından, müvafiq Təlimat qeydlərindən, müsbət təcrübəyə dair qeydlərdən və müştərilərinə EvəS siyasətlərlə bağlı kömək etmək üçün BMK tərəfindən hazırlanmış digər materiallardan; Dünya Bankı Qrupunun (DBQ) Sağlamlıq, Təhlükəsizlik və Ətraf mühit (STƏM) Təlimatlarından; UMO (Uyğunluq üzrə Müşavir/Ombudsman) siyasətindən; və digər müvafiq sənədlərdən (bax: Əlavə 1) ibarət olmalıdır.

ESİİP-nın məqsədi Mexanizm vasitəsilə maliyyələşdiriləcək layihələrdən irəli gələn ekoloji və sosial riskləri və təsirləri qiymətləndirmək və azaltmaqdır.

BMK-nın dayanıqlılıq üzrə iş planı BMK-nın risklərin idarə edilməsinə yanaşmasının ayrılmaz hissəsi olub, Korporasiyanın dayanıqlı inkişafa dair strateji öhdəliyini ifadə edir. Dayanıqlılıq üzrə iş planı BMK-nın Ekoloji və Sosial dayanıqlılığa dair siyasəti və Fəaliyyət standartlarından, həmçinin BMK-nın İnformasiyaya çıxış siyasətindən ibarətdir. Ekoloji və Sosial dayanıqlılığa dair siyasətdə BMK-nın ekoloji və sosial dayanıqlılıqla bağlı öhdəlikləri, vəzifələri və məsuliyyətləri təsvir edilir. BMK-nın İnformasiyaya çıxış siyasətində BMK-nın əməliyyatlarında şəffaflıq və müvafiq idarəetmənin təmin edilməsi öhdəliyi əks etdirilir və Korporasiyanın sərmayə və məsləhət xidmətlərinə dair məlumatları açıqlamaq üçün institusional öhdəlikləri vurğulanır. Fəaliyyət standartları müştərilərə doğru yönəldilmiş olub, risk və təsirləri müəyyənləşdirmək istiqamətində bələdçilik edir və maraqlı tərəflərin cəlb edilməsi və müştərinin layihə səviyyəli fəaliyyətlərlə bağlı öhdəliklərinin açıqlanması daxil olmaqla, biznes fəaliyyətinin dayanıqlı şəkildə aparılmasının bir yolu kimi risk və təsirlərin qarşısını almağa, onları azaltmağa və idarə etməyə kömək olaraq hazırlanmışdır. BMK Korporasiyanın ümumi inkişaf məqsədlərinə nail olmaq üçün biznes fəaliyyətini yönləndirmək məqsədilə digər strategiyalar, siyasətlər və təşəbbüslərlə yanaşı Dayanıqlılıq üzrə iş planından istifadə edir.[2]

Fəaliyyət standartları xüsusilə BMK-nın sərmayə yatırdığı və məsləhətlər verdiyi müştərilərinə risk və nəticə əsaslı yanaşma yolu ilə ekoloji və sosial göstəricilərini idarə etmək və yaxşılaşdırmağa kömək edir. Fəaliyyətin xarakteri və miqyasına, habelə ekoloji və sosial risk və/yaxud təsirlərin səviyyəsinə müvafiq olan vasitələrlə arzu olunan nəticələrə nail olmaqda müştərilərə kömək etmək üçün bu arzu olunan nəticələr, o cümlədən konkret tələblər hər Fəaliyyət standartının məqsədində təsvir edilmişdir. İşçilər, icmalar və ətraf mühitə qarşı mənfi təsirlərin proqnozlaşdırılması və qarşısının alınması yaxud bu mümkün olmadıqda, minimallaşdırılması və təsirlər qalmış olduqda isə müvafiq qaydada risklərin

---

[2] BMK-nın dayanıqlılıq üzrə iş planı (worldbank.org)
[3] https://www.ifc.org/en/insights-reports/2012/publications-policy-sustainability-2012

qarşılanması/kompensasiya edilməsi üçün fəsadların yüngülləşdirilməsi iyerarxiyasının tətbiqi bu tələblərin mərkəzində tutulur. [3] Razılaşdırılmış məsləhət fəaliyyəti çərçivəsində bütün məsləhət və təlimlər Fəaliyyət standartlarına uyğun təmin ediləcək.

Bu sənəd ESİİP-nın müxtəlif seqmentlərinin xülasəsi olsa da, BMK layihələrinə tətbiq olunan siyasət və standartların tamamına baxmaq üçün ESİİP-nın tərkib hissələrinin tam mətninə və əlaqədar sənədlərə istinad edilməlidir. Lütfən, Siyasətlər və standartlar (ifc.org) linki ilə keçərək bu sənədlərə nəzər salın.

Bu proqram bir neçə ölkəni və bir neçə illik müddəti ehtiva etdiyi üçün yalnız hər komponent əsasında layihələr seçildikdə spesifik ekoloji və sosial risklər və təsirlər məlum olacaq. Buna baxmayaraq, BMK EvəS məsələlərinin yoxlanılması və nəzarətinə dair təfərrüatlı və etibarlı prosedurlar hazırlamışdır və layihə ilə bağlı konkret ekoloji və sosial risk və təsirlərin, o cümlədən risklər, təsir və fəsadların yüngülləşdirilməsinə dair cinsi fərqlərin nəzərə alınması daxil olmaqla, fəsadların yüngülləşdirilməsi üzrə müvafiq tədbirlərin qiymətləndirilməsi zamanı bu prosedurlar tətbiq ediləcəkdir. Layihə səviyyəsində ekoloji və sosial risklər və təsirlər lazımi yoxlama mərhələsində müəyyən ediləcək və sərmayə müddəti ərzində monitorinq ediləcək.

## A. BMK-nın ekoloji və sosial dayanıqlılığa dair siyasəti[4]

Burada BMK-nın dayanıqlılıq üzrə öhdəlikləri, vəzifələri və məsuliyyətləri, ortaqlarla əməkdaşlığı və idarəetmə və açıqlama ilə bağlı xüsusi təşəbbüsləri təsvir edilir.

BMK əməkdaşları və müştərilərinə kömək etmək naminə bu Siyasətdən əlavə aşağıdakılar daxil olmaqla, digər materiallara da istinad edir:

- BMK-nın məlumatın açıqlanmasına dair institusional tələblərini təfərrüatları ilə göstərən İnformasiyaya çıxış siyasəti[5];
- BMK-nın fəaliyyət standartları[6];
- BMK-nın fəaliyyət standartlarına dair təlimat qeydləri[7] Fəaliyyət standartlarını müşayiət edən sənədlər olub, Fəaliyyət standartlarında (o cümlədən istinad materiallarında) göstərilən tələblər üçün faydalı təlimatlar, eləcə də biznes fəaliyyətinin və inkişaf nəticələrinin yaxşılaşdırılması üçün dayanıqlı təcrübələri ehtiva edir;

---

[4] https://www.ifc.org/en/insights-reports/2012/publications-policy-sustainability-2012
[5] https://www.ifc.org/content/dam/ifc/doc/2010/2012-ifc-access-to-information-policy-en.pdf
[6] https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standards
[7] https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standards
[8] https://www.ifc.org/en/insights-reports/2000/general-environmental-health-and-safety-guidelines

- Dünya Bankı Qrupunun sektor və sənaye təcrübələri və performans səviyyələrinə aid Sağlamlıq, Təhlükəsizlik və Ətraf mühitə dair Təlimatları Fəaliyyət standartına[8] uyğundur; və
- Müsbət təcrübəyə dair qeydlər, məlumat kitabçaları və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübələri və bu təcrübələrə dair istinad məlumatının nümunələrini təmin edən başqa materiallar.

## B. BMK-nın fəaliyyət standartları (2012)

Fəaliyyət standartları BMK-nın sərmayə yatırdığı və məsləhətlər verdiyi müştərilərinə risk və nəticə əsaslı yanaşma yolu ilə ekoloji və sosial göstəricilərini idarə etmək və yaxşılaşdırmağa kömək edir. Fəaliyyətin xarakteri və miqyasına, habelə ekoloji və sosial risk və/yaxud təsirlərin səviyyəsinə müvafiq olan vasitələrlə arzu olunan nəticələrə nail olmaqda müştərilərə kömək etmək üçün bu arzu olunan nəticələr, o cümlədən konkret tələblər hər Fəaliyyət standartının məqsədində təsvir edilmişdir. İşçilər, icmalar və ətraf mühitə qarşı mənfi təsirlərin proqnozlaşdırılması və qarşısının alınması yaxud bu mümkün olmadıqda, minimallaşdırılması və təsirlər qalmış olduqda isə müvafiq qaydada risklərin qarşılanması/kompensasiya edilməsi üçün fəsadların yüngülləşdirilməsi iyerarxiyasının tətbiqi bu tələblərin mərkəzində tutulur. BMK inanır ki, Fəaliyyət standartları hər şeydən əlavə müştərilərin əməliyyatlarının ümumi dayanıqlılığını artıra bilməsi, bizneslərini inkişaf etdirmək üçün yeni imkanların müəyyən edilməsi və bazarda rəqabət üstünlüklərinin yaradılması üçün əsaslı təməli təmin edir. Ekoloji və sosial risk və təsirlərin Fəaliyyət standartlarına uyğun şəkildə idarə edilməsi müştərinin məsuliyyəti olsa da, BMK yoxlama, monitorinq və nəzarət tədbirləri vasitəsilə maliyyələşdirdiyi biznes fəaliyyətinin Fəaliyyət standartlarının tələblərinə əsasən icra edildiyindən əmin olmağa çalışır. Nəticədə BMK-nın təklif edilən biznes fəaliyyət üzərində keçirdiyi ekoloji və sosial yoxlamaların nəticəsi təsdiq prosesinin mühüm amili olub, BMK tərəfindən maliyyələşdirmənin ekoloji və sosial şərtlərinin əhatə dairəsini müəyyən edəcək. Bu Siyasətə sadiq qalmaqla BMK (i) hərəkətləri və qərar qəbulu prosesinin proqnozlaşdırıla bilənliyi, şəffaflığı və etibarlılığını artırmağa; (ii) müştərilərə ekoloji və sosial risk və təsirlərini idarə edərək performanslarını yaxşılaşdırmaqda kömək etməyə; və (iii) yerində müsbət inkişaf nəticələrini genişləndirməyə çalışır.[9]

Səkkiz Fəaliyyət standartı birlikdə müştərinin BMK sərmayəsi dövründə cavab verməli olduğu standartları təşkil edir:

### 1. 1-ci fəaliyyət standartı: Ekoloji və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi

**1-ci fəaliyyət standartı** ekoloji və sosial risk və təsirləri olan bütün layihələrə tətbiq edilir. Layihənin şərtlərindən asılı olaraq başqa Fəaliyyət standartları da tətbiq edilə bilər. Fəaliyyət standartları birlikdə oxunmalı və lazım gəldikdə onlara çarpaz qaydada istinad edilməlidir. Hər paraqrafda qeyd edilən konkret məhdudiyyətlərdə xüsusilə qeyd edilmədiyi halda, hər Fəaliyyət standartının tələblər bölməsi layihə əsasında maliyyələşdirilən bütün fəaliyyətlərə şamil edilir. Maliyyələşmə mənbəyindən asılı olmayaraq, müştərilərə layihə çərçivəsində olan bütün fəaliyyətlərə 1-ci fəaliyyət standartına əsasən hazırlanmış ESİS-ni tətbiq etmək tövsiyə edilir. İqlim dəyişikliyi, cinsi bərabərlik, insan hüquqları və su təchizatı kimi bir sıra kəsişən mövzular bir çox Fəaliyyət standartında ünvanlandırılır.

---

[9] BMK-nın dayanıqlılıq siyasəti (2012)

1-ci fəaliyyət standartında (i) layihələrin ekoloji və sosial təsirlərinin, risklərinin və imkanlarının müəyyən edilməsi üçün inteqrasiya olunmuş qiymətləndirmə keçirilməsinin;

(ii) layihə ilə bağlı məlumatların açıqlanması və onlara birbaşa təsir edən məsələlər üzrə yerli icmalarda məsləhətləşmələr vasitəsilə ictimaiyyətin effektiv iştirakının; və (iii) layihənin müddəti ərzində müştərinin ekoloji və sosial fəaliyyətinin idarə edilməsinin mühümlüyü vurğulanır. 1-ci fəaliyyət standartı ekoloji və sosial risk və təsirləri olan bütün layihələrə tətbiq edilir. Layihənin şərtlərindən asılı olaraq başqa Fəaliyyət standartları da tətbiq edilə bilər. Müştərilər Fəaliyyət standartlarının tələblərinə cavab verməklə yanaşı, qüvvədə olan yerli qanunlara, o cümlədən beynəlxalq qanun çərçivəsində ev sahibi ölkənin öhdəliklərini idarə edən qanunlara riayət etməlidir.

Layihə müddəti ərzində ekoloji və sosial fəaliyyətin idarə edilməsinin mühümlüyü 1-ci fəaliyyət standartında vurğulanır. Səmərəli Ekoloji və Sosial İdarəetmə Sistemi (ESİS) rəhbərlik tərəfindən başladılan və dəstəklənən dinamik və davamlı proses olub, müştəri, onun əməkdaşları, layihənin birbaşa təsir etdiyi yerli icmalar (Zərər çəkmiş icmalar) və müvafiq olduqda başqa maraqlı tərəflər arasındakı münasibətləri ehtiva edir. “Planlaşdır, icra et, yoxla və hərəkətə keç” prinsipi ilə yaradılmış biznes idarəetmə prosesinin elementlərinə əsaslanan ESİS ekoloji və sosial risklərin idarə edilməsinə metodoloji yanaşmanın tətbiq olunmasına səbəb olur. Layihənin növü və miqyasına uyğun müsbət ESİS möhkəm və dayanıqlı ekoloji və sosial fəaliyyəti təşviq edir və təkmilləşdirilmiş maliyyə, sosial və ekoloji nəticələrə səbəb ola bilər.

1-ci FS-nın məqsədləri: (i) layihənin ekoloji və sosial risk və təsirlərini müəyyən etmək və qiymətləndirmək; (ii) əməkdaşlar, Zərər çəkmiş icmalar və ətraf mühitə qarşı mənfi təsirləri proqnozlaşdırmaq və qarşısını almaq yaxud bu mümkün olmadıqda, minimallaşdırmaq və təsirlər qalmış olduqda isə müvafiq qaydada risklərin qarşılanması/kompensasiya edilməsi üçün fəsadları yüngülləşdirmə iyerarxiyasını tətbiq etmək; (iii) idarəetmə sistemindən səmərəli şəkildə istifadə etməklə müştərilərin təkmilləşdirilmiş ekoloji və sosial fəaliyyətini təşviq etmək; (iv) Zərər çəkmiş icmaların şikayətlərinin və başqa əlaqəli şəxslərlə kənar müraciətlərin cavablandırılmasını və müvafiq şəkildə idarə edilməsini təmin etmək; (v) layihə dövrü ərzində Zərər çəkmiş icmalarla onlara potensial təsiri olan bilən məsələlərlə bağlı müvafiq əlaqələrin qurulması yollarını təşviq və təmin etmək və müvafiq ekoloji və sosial məlumatların açıqlanması və yayılmasından əmin olmaq.

Müştəri ekoloji və sosial məqsəd və prinsipləri müəyyən edən və etibarlı ekoloji və sosial fəaliyyətə nail olmaq üçün layihə təlimatı kimi istifadə edilən ümumi siyasət yaradacaq. Siyasət ekoloji və sosial qiymətləndirmə və idarəetmə prosesi üçün iş planını ehtiva edir və layihənin (və ya müvafiq olduqda, biznes fəaliyyətin) icra edildiyi yurisdiksiyada qüvvədə olan qanun və qaydalara, o cümlədən ev sahibi ölkənin beynəlxalq qanuna əsaslanan öhdəliklərinin icrasını tənzimləyən qanunlara cavab verəcəyini təsdiqləyir.

### *a) Layihə səviyyəsində maraqlı tərəflərlə qarşılıqlı münasibətlər*[10]

Maraqlı tərəflər layihədən birbaşa və ya dolayı zərər çəkmiş şəxslər və ya qruplar, o cümlədən layihədə maraqları ola bilən və/və ya layihənin nəticəsinə müsbət yaxud mənfi təsir edə bilmə imkanı olan

---

[10] Ətraflı məlumat almaq üçün maraqlı tərəflərlə qarşılıqlı münasibətlər bölməsinə baxın: Ümumi bazarlarda fəaliyyət göstərən şirkətlər üçün müsbət təcrübəyə dair məlumat kitabçası aşağıdakı keçiddən əldə edilə bilər: https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/ifc-stakeholderengagement1.pdf

şəxslərdir. Maraqlı tərəflərə layihədən zərər çəkmiş yerli icmalar və ya fərdlər, həmçinin onların rəsmi və qeyri-rəsmi nümayəndələri, milli və ya yerli dövlət orqanları, siyasətçilər, din xadimləri, mülki cəmiyyət təşkilatları və xüsusi maraqları olan qruplar, elmi institutlar və ya başqa bizneslər də daxil ola bilər.

Bu fərdlər və ya qrupların hər birinin layihədə və ya sərmayədə olan “payı” fərqli olacaq. Məsələn, layihənin potensial ekoloji və ya sosial mənfi təsirinə birbaşa məruz qalmış insanlar ola bilər. Digərləri ümumiyyətlə başqa ölkədə yaşamalarına baxmayaraq, öz narahatlıqlarını və ya təkliflərini layihəni icra edən şirkətə bildirmək istəyə bilər. Bundan əlavə dövlətin tənzimləyici orqanları, siyasi və ya dini liderlər və yerli icmada fəallıq nümayiş etdirən başqa şəxslər kimi layihəyə ciddi təsir göstərə bilən şəxslər var. Həmçinin elə maraqlı tərəflər də var ki, öz bilik və ya nüfuzları sayəsində (məsələn, vasitəçilik münasibətlərində dürüst broker kimi çıxış edərək) layihəyə müsbət töhfə verə bilər.

Maraqlı tərəflərlə qarşılıqlı münasibətlər layihənin müddəti ərzində bir sıra fəaliyyətləri və qarşılıqlı əlaqələri əhatə edən çətir termindir. Bunlar səkkiz komponentə ayrıla bilər:

■ Maraqlı tərəflərin müəyyən edilməsi və təhlili
■ Məlumatların açıqlanması
■ Maraqlı tərəflər üçün məsləhətlər
■ Danışıqlar və ortaqlıq əlaqələri
■ Şikayətlərin idarə edilməsi
■ Maraqlı tərəflərin layihə üzrə monitorinqə cəlb edilməsi
■ Maraqlı tərəflərə hesabat verilməsi
■ İdarəetmə funksiyaları

### *b) Layihə səviyyəsində şikayət mexanizmi*[11]

Şikayət mexanizmləri Sosial və ekoloji dayanıqlılıqla bağlı Siyasət və Fəaliyyət standartlarına əsasən BMK-nın icmanın müştərilərlə münasibətlərinə dair tələblərə yönəlmiş yanaşmasıdır. Yeni layihə və ya şirkətin mövcud əməliyyatlarının ətraf icmalara qarşı mövcud risk və mənfi təsirlərlə müşayiət olacağı proqnozlaşdırıldıqda, müştəridən zərər çəkmiş icmaların müştərinin ekoloji və sosial fəaliyyəti ilə bağlı narahatlıqları və şikayətlərini dinləmək və cavablandırmaq üçün şikayətlərə baxış mexanizmi yaratmaq tələb ediləcək. Şikayətlərə baxış mexanizmi əsasında layihə ilə bağlı risklər və mənfi təsirlər uyğunlaşdırılmalı, problemlər operativ qaydada həll edilməli, mədəni cəhətdən müvafiq olan və zərər çəkmiş icmaların hər birinin heç bir xərc və ya cəza ilə qarşılaşmadan asanlıqla istifadə edə biləcəyi anlaşılan və şəffaf proses olmalıdır. Mexanizm hüquqi və inzibati vasitələrə çıxışa mane olmamalıdır. İcmalarla qarşılıqlı əlaqə prosesi əsnasında müştəri zərər çəkmiş icmaları mexanizm barədə məlumatlandıracaq (1-ci FS, paraqraf 23).

Şikayətlərə baxış mexanizmi vasitəsilə icmanın BMK-nın fəaliyyət standartları ilə ehtiva edilən bir çox problemləri həll edilə bilməlidir. Təhlükəsizlik işçiləri (4-cü FS, paraqraf 13), torpağın alınması (5-ci FS, paraqraf 10) və yerli əhaliyə mənfi təsirlərlə (7-ci FS, paraqraf 9) bağlı zərər çəkmiş icmalar üçün şikayətlərə baxış mexanizminin tələbləri açıq şəkildə ifadə edilmişdir. Əlavə təlimatlar müvafiq Təlimat qeydlərində verilmişdir. BMK-nın müştəri şirkətlərindən layihənin riskləri və mənfi təsirləri çərçivəsində şikayətlərə

---

[11] Ətraflı məlumat almaq üçün aşağıdakı linklə keçərək Layihədən zərər çəkmiş icmaların şikayətlərinin ünvanlandırılmasına dair müsbət təcrübə qeydinə baxın:
https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/ifc-grievance-mechanisms.pdf.

baxış mexanizmi hazırlamaq tələb ediləcək. İcmalara dəyən zərər layihənin sosial və ekoloji qiymətləndirmə proseduru çərçivəsində qiymətləndiriləcək.

Qiymətləndirmənin nəticəsinə əsasən BMK-nın layihə sponsorlarından sosial və ekoloji idarəetmə prosesi və icma ilə qarşılıqlı münasibətlərini inkişaf etdirmək və ya təkmilləşdirmək və fəaliyyət planlarına müvafiq tədbirləri daxil etmək tələb edilə bilər. Buna baxmayaraq, qiymətləndirmə prosesi zamanı layihə dövrü ərzində yaranan problemlərin hər birini proqnozlaşdırmaq və qarşısını almaq mümkün deyil. İlkin geniş sosial və ekoloji qiymətləndirmə gələcəkdə şikayətlərin yaranma ehtimalını və həcmini azaltmağa kömək etsə də, bu cür şikayətlərə baxış mexanizminə olan ehtiyac hər zaman mövcud olacaq. BMK şikayətlərə baxış mexanizmini bütün müştərilər üçün maraqlı tərəflərlə qarşılıqlı əlaqələrin mərhələlərindən biri olaraq görür. Şikayətlərə baxış mexanizmləri maraqlı tərəflərlə başqa qarşılıqlı əlaqə formaları üçün məlumatlandırma və tamamlama kimi çıxış etsə də, onları əvəz etmir. Həmçinin maraqlı tərəflərin müəyyən və təhlil edilməsi, məlumatların açıqlanması, maraqlı tərəflər üçün məsləhətlər, danışıqlar və ortaqlıqlar, maraqlı tərəflərin layihənin monitorinqi prosesinə cəlb edilməsi və maraqlı tərəflərə hesabat verilməsi də maraqlı tərəflərlə qarşılıqlı əlaqələrə daxil ola bilər.

1-ci Fəaliyyət standartının tam mətni və əlaqədar icra ehtiyatlarına aşağıdakı keçidlə çıxmaq mümkündür: https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standard-1

## 2. 2-ci fəaliyyət standartı: Əmək və iş şərtləri

2-ci fəaliyyət standartına əsasən iş yerlərinin yaradılması və gəlir əldə edilməsi vasitəsilə iqtisadi artıma nail olmaq işçilərin əsas hüquqlarının müdafiəsi ilə müşayiət olunmalıdır. İstənilən biznes üçün işçi qüvvəsi dəyərli aktivdir və etibarlı işçi-rəhbərlik münasibətləri şirkətin dayanıqlılığının başlıca hissəsidir. Etibarlı işçi-rəhbərlik münasibətlərini qura və qoruya bilməmək işçinin işinə sadiqliyi və bağlılığını sarsıda və beləliklə layihənin uğurunu təhlükə altına ala bilər. Və əksinə işçilər və rəhbərlik arasında konstruktiv münasibətlərin qurulması, əməkdaşlarla ədalətli davranış və onlar üçün təhlükəsiz və sağlam iş şəraitinin yaradılması ilə müştərilər fəaliyyətlərində səmərəliliyin və məhsuldarlığın artması kimi mühüm faydalar əldə edə bilər. Bu Fəaliyyət standartında qeyd edilən tələblər qismən Beynəlxalq Əmək Təşkilatı (BƏT) və Birləşmiş Millətlər Təşkilatı (BMT) daxil olmaqla, bir sıra beynəlxalq konvensiya və alətlərə əsaslanır. 2-ci FS-nın məqsədləri: i) işçilərlə ədalətli rəftar edilməsi, ayrı-seçkiliyə yol verilməməsi və bərabər imkanların yaradılmasını təşviq etmək; (ii) işçi-rəhbərlik münasibətlərini qurmaq, qorumaq və təkmilləşdirmək; (iii) məşğulluq və əməklə bağlı yerli qanunlara riayət olunmasını təşviq etmək; (iv) uşaqlar, mühacirlər, üçüncü tərəflər tərəfindən cəlb edilən işçilər və müştərinin təchizat zəncirindəki işçilər kimi həssas kateqoriyaya aid şəxslər daxil olmaqla, işçiləri qorumaq; (iv) təhlükəsiz və sağlam iş şəraitini təşviq etmək və işçilərin sağlamlığını qorumaq; və (v) məcburi əməyin tətbiqinə yol verməmək.

2-ci fəaliyyət standartının tam mətni və əlaqədar icra ehtiyatlarına aşağıdakı keçidlə çıxmaq mümkündür: https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standard-2

## 3. 3-cü fəaliyyət standartı: Ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin çirklənməsinin qarşısının alınması

3-cü fəaliyyət standartına əsasən yüksək iqtisadi fəallıq və urbanizasiya çox vaxt hava, su və torpaqda çirklənmə səviyyəsinin artmasına və tükənən mənbələrdən yerli, regional və qlobal səviyyələrdə insanlar və ətraf mühitə ziyan verəcək şəkildə istifadə edilməsinə səbəb olur. Həmçinin atmosferdəki istixana qazlarının (İQ) cari və proqnozlaşdırılan konsentrasiyasının ictimai səhiyyə və indiki və gələcək nəsillərin

rifahı üçün təhlükəli həddə olmasına dair ümumi rəylər bütün dünya üzrə artmaqdadır. Eyni zamanda demək olar ki, dünyanın hər yerində ehtiyatlardan daha səmərəli və effektiv şəkildə istifadə imkanları, habelə çirklənmənin və İQ-nın emissiyasının qarşısının alınması və fəsadların yüngülləşdirilməsi texnologiyaları və təcrübələrinə çıxış daha asan və rahat hal almışdır. Bunlar çox vaxt keyfiyyət və məhsuldarlığın artırılması üçün istifadə edilənlərə bənzər olub, ümumilikdə sənaye, kənd təsərrüfatı və xidmət sektorundakı bir çox şirkətlərə yaxşı tanış olan metodların davamlı təkmilləşdirilməsi ilə icra edilir. Bu Fəaliyyət standartında ehtiyatların səmərəliliyi və ətraf mühitin çirklənməsinin qarşısının alınmasına layihə səviyyəli yanaşma və beynəlxalq səviyyədə tətbiq edilən texnologiya və təcrübələrə uyğun nəzarət vurğulanır. Bundan əlavə bu Fəaliyyət standartında ticari mühitdə mövcud bilik və ehtiyatlara əsaslanan layihə çərçivəsində mümkün olan dərəcədə özəl sektora aid şirkətlərin bu texnologiya və təcrübələri mənimsəmə qabiliyyəti dəstəklənir.

3-cü FS-nın məqsədləri: (i) layihə fəaliyyətləri nəticəsində ətraf mühitin çirklənməsinin qarşısını almaq və ya minimuma endirməklə insan sağlamlığına və ətraf mühitə mənfi təsirlərin qarşısını almaq və ya minimuma endirmək. (ii) enerji və su daxil olmaqla ehtiyatlardan daha dayanıqlı istifadəni təşviq etmək. (iii) layihə ilə bağlı istixana qazlarının emissiyasını azaltmaq.

3-cü Fəaliyyət standartının tam mətni və əlaqədar icra ehtiyatlarına aşağıdakı keçidlə çıxmaq mümkündür: https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standard-3

## 4. 4-cü fəaliyyət standartı: İcmanın sağlamlığı, təhlükəsizliyi və mühafizəsi

**4-ci fəaliyyət standartına** əsasən layihəyə dair fəaliyyətlər, avadanlıq və infrastruktur icmanın risk və təsirlərə məruz qalma təhlükəsini artıra bilər. Bundan əlavə artıq iqlim dəyişikliyinin təsirinə məruz qalmış icmalar da layihə fəaliyyəti səbəbindən təsirin sürətlənməsi və/yaxud intensivləşməsi ilə qarşılaşa bilər. İctimaiyyətin sağlamlığı, təhlükəsizliyi və mühafizəsinin təmin edilməsində dövlət orqanlarının rolunu qəbul etməklə yanaşı, bu Fəaliyyət standartında müştərinin layihə fəaliyyətləri nəticəsində icmanın (xüsusilə həssas qruplara diqqət yetirilməklə) sağlamlığı, təhlükəsizliyi və mühafizəsi ilə bağlı yarana biləcək risklərin və təsirlərin qarşısını almaq və ya minimuma endirmək öhdəliyi təsvir edilir.

Münaqişə olan və ya münaqişəsonrası ərazilərdə bu Fəaliyyət standartında təsvir edilən risk və təsirlərin səviyyəsi daha yüksək ola bilər. Gələcək münaqişələrə səbəb ola biləcəyi üçün layihənin artıq yetərincə həssas olan yerli vəziyyəti daha da gərginləşdirə biləcəyi və qıt yerli ehtiyatları təhlükə altına qoya biləcəyi riskləri nəzərdən qaçırmaq olmaz.

4-cü FS-nın məqsədləri: (i) layihə müddətində Zərər çəkmiş icmanın sağlamlığı və təhlükəsizliyinə həm adi, həm də qeyri-standart şəraitdə mənfi təsirləri proqnozlaşdırmaq və qarşısını almaq. (ii) əməkdaşlar və əmlakın mühafizəsinin müvafiq insan hüquqları prinsiplərinə uyğun olaraq və Zərər çəkmiş icmalar üçün risklərin qarşısını alan və ya minimuma endirən şəkildə həyata keçirilməsini təmin etmək.

4-cü Fəaliyyət standartının tam mətni və əlaqədar icra ehtiyatlarına aşağıdakı keçidlə çıxmaq mümkündür: https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standard-4

## 5. 5-ci fəaliyyət standartı: Torpaq sahələrinin əldə edilməsi və məcburi köçürülmə

**5-ci fəaliyyət standartına** əsasən layihə ilə bağlı torpaqların alınması və torpaqdan istifadənin məhdudlaşdırılmasının bu torpaqdan istifadə edən icmalar və insanlara ciddi mənfi təsirləri ola bilər. Məcburi köçürmə dedikdə, həm fiziki yerdəyişmə (sığınacağın yerinin dəyişdirilməsi və ya itirilməsi), həm də layihə ilə əlaqədar torpaqların alınması və/və ya torpaqdan istifadə məhdudiyyətləri nəticəsində iqtisadi yerdəyişməni (gəlir mənbələrinin və ya digər yaşayış vasitələrinin itirilməsinə səbəb olan aktivlərin və ya aktivlərə çıxışın itirilməsi) nəzərdə tutulur. Zərər çəkmiş şəxslər və ya icmaların fiziki və ya iqtisadi yerdəyişmə ilə nəticələnən torpaq alınmasına və ya torpaqdan istifadə məhdudiyyətlərinə etiraz etmək hüququ olmadıqda köçürülmə məcburi hesab edilir. Bu vəziyyət aşağıdakı hallarda baş verir: (i) torpaqdan istifadənin hüququnun qanuni müsadirəsi yaxud torpaqdan istifadənin müvəqqəti və ya həmişəlik məhdudlaşdırılması və (ii) alıcının torpağı müsadirə edə biləcəyi danışıqlar yolu ilə məsələnin həll edilməsi yaxud satıcı ilə danışıqların nəticəsi uğursuz olduqda, torpaqdan istifadəyə qanuni məhdudiyyətlər qoyması.

Lazımi qaydada idarə edilmədikdə məcburi köçürülmə uzun müddətli çətinliklər və Zərər çəkmiş icmalar və insanların yoxsullaşmasına, habelə yerdəyişmə yerlərində ekoloji ziyan və sosial-iqtisadi mənfi təsirlərə səbəb ola bilər. Bu səbəblərdən məcburi köçürülməyə yol verilməməlidir. Lakin məcburi köçürülmə qaçılmaz olduqda, bu hallar minimallaşdırılmalı və yerdəyişməyə uğramış insanlara və ev sahibi icmalara qarşı mənfi təsirlərin yüngülləşdirilməsi üçün müvafiq tədbirlər diqqətlə planlaşdırılmalı və tətbiq edilməlidir. Çox vaxt dövlət torpağın alınması və köçürülmə prosesində, o cümlədən təzminatın müəyyən edilməsində mərkəzi rol oynayır və bu səbəbdən əksər hallarda mühüm üçüncü tərəf kimi çıxış edir. Təcrübə göstərir ki, müştərinin köçürülmə prosesinə birbaşa cəlb edilməsi bu prosesin daha sərfəli, səmərəli və vaxtında keçirilməsi, həmçinin köçürülmədən zərər çəkmiş şəxslərin yaşayışının yaxşılaşdırılmasına innovativ yanaşmaların tətbiq edilməsi ilə nəticələnə bilər.

Müsadirənin qarşını almaq və məcburi köçürülmə prosesində dövlət orqanlarının gücündən istifadə ehtiyacını aradan qaldırmaq naminə müştərilərə satıcının razılığı olmadan belə torpağı almaq üçün qanuni hüquqları olduqda belə, bu Fəaliyyət standartının tələblərinə əsasən danışıqlar yolu ilə razılıq əldə etmək məqsədilə görüş keçirmək tövsiyə edilir.

5-ci FS-nın məqsədləri: (i) yerdəyişməyə yol verməmək və bu mümkün olmadıqda, alternativ layihə planlarının tətbiqi ilə yerdəyişmə hallarını minimallaşdırmaq. (ii) məcburi köçürülməyə yol verməmək. (iii) (i) aktivlərin itkisi üçün əvəzetmə dəyərli təzminatın ödənilməsi və (ii) köçürmə işlərinin müvafiq açıqlama, məsləhətləşmə və zərər çəkmiş tərəflərin məlumatlı iştirakı ilə icra edilməsi yolu ilə torpağın alınması və ya torpaqdan istifadə məhdudiyyətlərinin mənfi sosial və iqtisadi təsirlərini proqnozlaşdırmaq və qarşısını almaq və ya qarşısını almaq mümkün olmadıqda, minimuma endirmək.

(iv) köçürülən insanların dolanışıq yolları və həyat standartlarını yaxşılaşdırmaq və ya bərpa etmək. (v) köçürülmə yerlərində istifadə hüququ ilə adekvat mənzillə təmin olunmaqla, fiziki yerdəyişməyə uğrayan şəxslər arasında yaşayış şəraitinin yaxşılaşdırılması.

### *a) Köçürməyə dair struktur*

Fiziki və/yaxud iqtisadi yerdəyişmə potensialı olan layihə ilə bağlı torpağın əldə edilməsi və ya torpaqdan istifadənin məhdudlaşdırılmasının dəqiq xarakteri və ya miqyası layihənin hazırlanması mərhələsində məlum olmasa da, müştəri bu Fəaliyyət standartına uyğun ümumi prinsipləri vurğulayan Köçürülmə və/yaxud Yaşayış şəraitinin bərpası üzrə İş planı hazırlayacaq. Layihənin fərdi komponentləri müəyyən

edildikdə və lazımi məlumat əldə edildikdə, bu iş planı 5-ci FS-nın 19 və 25-ci paraqraflarına əsasən xüsusi Köçürülmə prosesi planı və ya Yaşayış şəraitinin bərpası plan və prosedurlarına ayrılacaq.

5-ci fəaliyyət standartının tam mətni və əlaqədar icra ehtiyatlarına aşağıdakı keçidlə çıxmaq mümkündür: ://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standard-5

Təfərrüatlı təlimatlara aşağıdan baxa bilərsiniz:

- BMK-nın (2023) müsbət təcrübə üzrə məlumat kitabçası – Torpaq sahələrinin əldə edilməsi və məcburi köçürülmə - https://www.ifc.org/content/dam/ifc/doc/2023/ifc-handbook-for-land-acquisition-and-involuntary-resettlement.pdf
- 5-ci fəaliyyət standartı üçün BMK-nın (2012) təlimat qeydi 2012-ifc-ps-guidance-note-5-en.pdf

## 6. 6-cı fəaliyyət standartı: Bioloji müxtəlifliyin qorunması və canlı təbii sərvətlərin dayanıqlı idarə edilməsi

**6-cı Fəaliyyət standartına** əsasən bioloji müxtəlifliyin qorunması və saxlanılması, ekosistem xidmətlərinin tətbiq edilməsi və canlı təbii sərvətlərin dayanıqlı şəkildə idarə edilməsi dayanıqlı inkişafın bünövrəsini təşkil edir. Bu Fəaliyyət standartında müəyyən edilmiş tələblər bioloji müxtəlifliyi "digərləri ilə yanaşı yerüstü, dəniz və digər su ekosistemləri və bir hissəsi olduqları ekoloji komplekslər daxil olmaqla, bütün mənbələrdən olan canlı orqanizmlər arasındakı müxtəliflik (buraya növlər daxilində, növlər arasında və ekosistemlərdə olan müxtəliflik daxildir) kimi müəyyən edən Bioloji Müxtəliflik haqqında Konvensiya tərəfindən təyin edilmişdir. Ekosistem xidmətləri fiziki və hüquqi şəxslərin ekosistemlərdən aldığı faydalardır. Ekosistem xidmətləri dörd növə ayrılır: (i) insanların ekosistemlərdən əldə etdiyi məhsullar olan təminat xidmətləri; (ii) insanların ekosistem proseslərinin tənzimlənməsindən əldə etdiyi faydalar olan tənzimləmə xidmətləri; (iii) insanların ekosistemlərdən əldə etdiyi qeyri-maddi faydalar olan mədəni xidmətlər; və (iv) digər xidmətləri təmin edən təbii proseslər olan dəstəkləyici xidmətlər.

İnsanların dəyər verdiyi ekosistemlər çox vaxt bioloji müxtəlifliklə dəstəklənir. Bu səbəbdən bioloji müxtəlifliyə təsirlər çox vaxt ekosistem xidmətlərinin çatdırılmasına mənfi təsir göstərə bilər. Bu fəaliyyət standartında müştərilərin layihənin həyat dövrü ərzində bioloji müxtəlifliyə və ekosistem xidmətlərinə təsirləri davamlı şəkildə idarə etməsi və azaltmasının mümkün üsulları qeyd edilir.

6-cı FS-nın məqsədləri: (i) bioloji müxtəlifliyi qorumaq və mühafizə etmək. (iii) ekosistem xidmətlərindən əldə edilən faydaları qorumaq. (iii) qoruma ehtiyaclarını və inkişaf prioritetlərini birləşdirən təcrübələrin tətbiqi vasitəsilə canlı təbii sərvətlərin dayanıqlı idarə olunmasını təşviq etmək.

6-cı Fəaliyyət standartının tam mətni və əlaqədar icra ehtiyatlarına aşağıdakı keçidlə çıxmaq mümkündür: https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standard-6

## 7. 7-ci fəaliyyət standartı: Yerli əhali

7-ci fəaliyyət standartına əsasən yerli əhali milli cəmiyyətlərdəki əsas qruplardan fərqli şəxsiyyətlərə malik sosial qruplar kimi çox vaxt əhalinin ən təcrid olunmuş və həssas təbəqələri arasındadır. Bir çox hallarda onların iqtisadi, sosial və hüquqi statusu onların torpaqlar, təbii və mədəni sərvətlər üzərində hüquq və mənafelərini müdafiə etmək hüquqlarını qısa və inkişafda iştirak etmək və ondan faydalanmaq imkanlarını

məhdudlaşdıra bilər. Torpaqları və sərvətləri dəyişdirildikdə, zəbt olunduqda və ya əhəmiyyətli dərəcədə deqradasiyaya uğradıqda Yerli əhali xüsusilə həssas olur. Onların dili, mədəniyyəti, dini, mənəvi inancı və institutlar da təhlükəyə məruz qala bilər. Nəticədə yerli əhali qeyri-yerli əhalidən daha çox layihə ilə bağlı mənfi təsirlərinə qarşı həssas ola bilər. Bu həssaslığa kimliyin, mədəniyyətin və təbii sərvətlərdən asılı yaşayış şəraitinin itirilməsi, həmçinin yoxsulluq və xəstəliklərə məruz qalma daxil ola bilər.

Özəl sektorun layihələri iqtisadi və sosial inkişafa olan meyllərini reallaşdırmaqda kömək olaraq Yerli əhali üçün layihə ilə bağlı fəaliyyətlərdə iştirak etmək və faydalanmaq imkanları yarada bilər. Bundan əlavə Yerli əhali inkişaf prosesində ortaq qismində çıxış edərək fəaliyyət və müəssisələrin təşviq və idarə edilməsi yolu ilə dayanıqlı inkişafda müəyyən rol oynaya bilər. Yerli əhalinin problemlərinin idarə edilməsində adətən dövlət mərkəzi vəzifəni icra edir və müştərilər fəaliyyətlərinin yaratdığı risk və təsirlərin idarə edilməsində səlahiyyətli orqanlarla əməkdaşlıq etməlidir.

7-ci FS-nın məqsədləri: (i) inkişaf prosesi zamanı yerli əhalinin insan hüquqlarına, ləyaqətinə, istəklərinə, mədəniyyətinə və təbii sərvətlərə əsaslanan dolanışıq vasitələrinə tam hörmətlə yanaşılmasını təmin etmək. (Ii) layihələrin yerli əhali icmalarına qarşı mənfi təsirlərini proqnozlaşdırmaq və qarşısını almaq və ya qarşısını almaq mümkün olmadıqda belə təsirləri minimuma endirmək və/və ya kompensasiya etmək. (Iii) dayanıqlı inkişafın yerli əhali üçün faydalarını və imkanlarını mədəni cəhətdən uyğun şəkildə təşviq etmək. (iv) layihənin müddəti ərzində layihədən zərər çəkmiş yerli əhali ilə Məlumatlı Məsləhətləşmə və İştirak (MMİ) sistemi vasitəsilə davamlı əlaqələr qurmaq və onları qorumaq. (v) bu Fəaliyyət standartında təsvir olunan hallar mövcud olduqda Yerli əhalinin Zərər çəkmiş icmalarının Müstəqil, İlkin və Məlumatlı Razılığını (AİMR) almaq. (vi) yerli əhalinin mədəniyyətinə, biliyinə və təcrübələrinə hörmət etmək və onları qorumaq.

### *a) Yerli əhali ilə bağlı iş planı*

Müştəri ekoloji və sosial risklər və təsirlərin qiymətləndirilməsi prosesi vasitəsilə layihədən zərər çəkmə ehtimalı olan bütün Yerli əhali icmalarını, həmçinin onlara təsir edən gözlənilən birbaşa və dolayı iqtisadi, sosial, mədəni (mədəni irs daxil olmaqla) və ekoloji təsirlərin təbiəti və dərəcəsini müəyyən edəcək.

Zərər çəkmiş Yerli əhali icmalarına qarşı mənfi təsirlərin qarşısı mümkün qədər alınmalıdır. Alternativ yollar araşdırılmış və mənfi təsirlərin qarşısı alınmaz olduğu aşkarlanmış olduqda, müştəri Zərər çəkmiş Yerli əhali icmalarının həssaslığı və bu cür təsirlərin xarakteri və miqyasına uyğun olaraq, mədəni cəhətdən müvafiq şəkildə bu təsirləri minimallaşdıracaq, bərpa və/yaxud kompensasiya edəcək. Müştərinin təklif etdiyi fəaliyyətlər Zərər çəkmiş Yerli əhali icmalarına maarifləndirici məsləhətlər verilməklə və onların iştirakı ilə hazırlanacaq və zamana bağlı planda (məsələn, Yerli əhali üzrə Plan) və ya Yerli əhaliyə dair ayrıca müddəaları olan daha geniş icma inkişaf etdirmə planında ehtiva ediləcək.[12]

7-ci fəaliyyət standartının tam mətni və əlaqədar icra ehtiyatlarına aşağıdakı keçidlə çıxmaq mümkündür: https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standard-7

Təfərrüatlı təlimatlara aşağıdan baxa bilərsiniz:

---

[12]Müvafiq planın tərtib edilməsi üçün səriştəli peşəkarların yardımına ehtiyac ola bilər. Yerli əhali daha geniş Zərər çəkmiş icmalara məxsus olduğu hallarda icmanın inkişaf planı müvafiq ola bilər.

- 7-ci fəaliyyət standartı üçün BMK-nın (2012) təlimat qeydi, o cümlədən Əlavə A - Yerli əhali ilə bağlı plan 2012-ifc-ps-guidance-note-7-en.pdf

**Qeyd:** Davamlı su infrastruktur fondunun şərtlərinə əsasən BMK borcalanlarla Davamlı su infrastruktur fondunun layihələri çərçivəsində müqavilələr bağlayaraq, onlardan BMK-nın yerli əhali ilə siyasət və prosedurlara əməl etməyi tələb edəcək və bu tələblərə əsasən borcalanlar Davamlı su infrastruktur fondunun layihələrinin icraçı qurumları olaraq YİK-nin Yerli əhali ilə bağlı siyasətinin (YƏS) [13] tələblərinə cavab verə, bu cür tələblərə cavab verilməsi hallarına nəzarət edə və tələblərə cavab verilmədiyi halda Amerika Tibb Asossiasiyasının tələblərinə əsasən ağlabatan tədbirlər görə biləcək.

### 8. 8-ci fəaliyyət standartı: Mədəni irs

**8-ci fəaliyyət** standartında hazırkı və gələcək nəsillərin mədəni irsinin mühümlüyü məsələsinə toxunulur. Dünya Mədəniyyət və Təbiət Miraslarının qorunmasına dair Konvensiyaya uyğun olaraq bu Fəaliyyət standartının məqsədi müştərinin layihə fəaliyyəti çərçivəsində mədəni irsi qorumasını təmin etməkdir. Bundan əlavə bu Fəaliyyət standartının layihə çərçivəsində mədəni irsdən istifadə ilə bağlı tələbləri qismən Bioloji müxtəliflik Konvensiyasında qeyd edilən standartlara əsaslanır. 8-ci FS-nın məqsədləri: (i) mədəni irsi layihə üzrə fəaliyyətlərin mənfi təsirlərindən qorumaq və qorunmasına dəstək olmaq. (ii) mədəni irsdən istifadənin faydalarının ədalətli şəkildə bölüşdürülməsini təşviq etmək.

8-ci fəaliyyət standartının tam mətni və əlaqədar icra ehtiyatlarına aşağıdakı keçidlə çıxmaq mümkündür: https://www.ifc.org/en/insights-reports/2012/ifc-performance-standard-8

## III. BMK-nın fəaliyyət standartlarına dair təlimat qeydləri

BMK Ekoloji və Sosial Dayanıqlılığa dair Fəaliyyət standartlarına uyğun olaraq bir sıra Təlimat qeydləri hazırlamışdır. Bu Təlimat qeydlərində istinad materialları daxil olmaqla, Fəaliyyət standartlarında qeyd edilən tələblər və layihənin icrasını yaxşılaşdırmaq üçün müsbət dayanıqlılıq təcrübələri üzrə faydalı təlimatlar verilir. Bu Təlimat qeydləri müstəqil siyasət olaraq deyil, Fəaliyyət standartlarının tələblərinin izahı kimi qəbul edilməlidir.

BMK hər bir müştəridən Fəaliyyət standartlarının tələblərinə cavab verərək biznes fəaliyyətinə ən uyğun metodları tətbiq etməsini gözləyir. Müştəriyə Fəaliyyət standartlarına əməl etməkdə kömək edən zaman BMK ev sahibi ölkənin şəraiti, layihə təsirlərinin miqyası və mürəkkəbliyi və bununla bağlı xərc-fayda mülahizələri kimi dəyişkən şərtləri, həmçinin layihənin Fəaliyyət standartına əsasən tələb olunan səviyyəni aşan fəaliyyət göstəricilərini nəzərə alacaq. Təlimat qeydlərində faydalı məsləhətlər verilsə də, Fəaliyyət standartlarına uyğun layihə qərarları qəbul etmək üçün müştərilərin və BMK əməkdaşlarının istifadə etdiyi düzgün mühakimə və mülahizəni əvəz etmir.

Hər Təlimat qeydinin Fəaliyyət standartına uyğun tam mətni əvvəlki bölmələrdə müzakirə edilən hər Fəaliyyət standartı üçün təmin edilən əlaqədar icra ehtiyatları linkindən əldə edilə bilər.

[13] Yerli əhali ilə bağlı siyasətə baxın | Yaşıl iqlim fondu

# IV. DBQ-nun STƏM ilə bağlı təlimatları[14]

Sağlamlıq, Təhlükəsizlik və Ətraf mühitə (STƏM) dair Təlimat qeydləri Qabaqcıl Beynəlxalq Sənaye Təcrübələrinin ümumi və sənayeyə xas nümunələr qeyd edilən texniki istinad sənədləri olub, Dünya Bankının Ekoloji və Sosial məsələlər üzrə İş planında və BMK-nın Fəaliyyət standartlarında qeyd edilir.

STƏM təlimatlarında adətən Dünya Bank Qrupu tərəfindən qəbul edilən və ümumilikdə yeni obyektlərdə mövcud texnologiyaların istifadəsi ilə münasib xərclər çəkilərək mümkün ola bilən fəaliyyət səviyyələri və tədbirləri qeyd edilir. Dünya Bankı Qrupu borcalanları/müştərilərindən STƏM təlimatlarının müvafiq səviyyələri və ya tədbirlərini tətbiq etməyi tələb edir. Ev sahibi ölkənin tətbiq etdiyi qaydalar STƏM təlimatlarında göstərilən səviyyə və tədbirlərdən fərqləndikdə, layihələr ən sərt olanlara əsasən həyata keçirilməlidir.

STƏM ilə bağlı ümumi təlimatlarının tam mətninə, eləcə də xüsusi Sənaye Sektoru Təlimatları üçün müvafiq portallara aşağıdakı keçid vasitəsilə daxil olmaq olar: https://www.ifc.org/en/insights-reports/2000/general-environmental-health-and-safety-guidelines

## A. STƏM ilə bağlı ümumi təlimatlar

STƏM ilə bağlı ümumi təlimatlarda bütün sənaye sektorlarına potensial olaraq tətbiq oluna bilən ikitərəfli sağlamlıq, təhlükəsizlik və ətraf mühit məsələləri haqqında məlumatlar ehtiva edilir. Bu sənəd müvafiq Sənaye Sektoru Təlimat(lar)ı ilə birgə istifadə edilməlidir.

## B. Su təchizatı və sanitariya sahəsində sağlamlıq, təhlükəsizlik və ətraf mühitlə bağlı təlimatlar (2007)[15]

Su təchizatı və sanitariya üzrə STƏM təlimatlarına (i) içməli su emalı və paylanması sistemlərinin istismarı və saxlanması və (ii) mərkəzləşdirilmiş sistemlərdə (məsələn, boru kəməri vasitəsilə kanalizasiya tullantılarının toplama şəbəkələri) və ya qeyri-mərkəzləşdirilmiş sistemlərdə (məsələn, sonradan sistern maşınları tərəfindən xidmət edilən septik çənlər) kanalizasiya sularının toplanması və mərkəzləşdirilmiş qurğularda yığılan çirkab sularının təmizlənməsi ilə bağlı məlumatlar daxildir.

Layihəyə xas xüsusiyyət və komponentlərdən asılı olaraq, su təchizatı və sanitariya layihələri ilə bağlı ekoloji problemlər xüsusilə tikinti və əməliyyat mərhələlərində yarana bilər. Tikinti fəaliyyəti əsnasında yaranan STƏM problemlərinin idarə edilməsinə dair tövsiyələr mülki layihələrin tikintisinə tətbiq edildiyi qaydada STƏM ilə bağlı ümumi təlimatlarda qeyd edilir.

Su təchizatı və sanitariya layihələri ilə bağlı STƏM təlimatlarına hər şeydən əlavə aşağıdakı sektora xas məqamlar da daxildir:

- İçməli su
    - Su toplanması
    - Su emalı
        - Bərk tullantılar
        - Tullantı suları

---

[14] Dünya Bankı Qrupunun Sağlamlıq, Təhlükəsizlik və Ətraf mühitə dair təlimatları (ifc.org)
[15] Su təchizatı və sanitariya - Son buraxılış - 7 dekabr.doc (ifc.org)

        - Təhlükəli kimyəvi maddələr
        - Hava emissiyaları
    - Su paylanması
        - Su sistemlərində sızmalar və təzyiqin azalması
        - Su atılması
- Sanitariya
    - Assenizasiya və septik toplama
    - Kanalizasiya
        - Məişət tullantı sularının boşaldılması
        - Sənaye tullantı sularının boşaldılması
        - Sızma və daşmalar
    - Tullantı suları və çöküntülərin emalı və atılması
        - Maye axım novları
        - Bərk tullantılar
        - Hava emissiyaları və qoxular
        - Təhlükəli kimyəvi maddələr
- İş yerində sağlamlıq və təhlükəsizlik
- İcma daxilində sağlamlıq və təhlükəsizlik
- Fəaliyyət göstəricisi və sənaye standartları

# V. CİNSİ BƏRABƏRLİK

Dünya Bankı Qrupunun Cinsi bərabərlik strategiyasında (FY16 -23) BMK daxil olmaqla, Dünya Bankı Qrupunun müstəqil və fərdi müştərilərə və şirkətlərə cinsi ayr-seçkiliyin qarşısının alınması və cinsi bərabərliyin təşviq edilməsi ilə bağlı təqdim edəcəyi dəstək vurğulanır. Bu dəstək yoxsulluğun azaldılması və tərəqqinin artırılması naminə mühüm olan daha genişmiqyaslı cinsi bərabərliyə nail olmaq üçün həlledici məna kəsb edir. DBQ-nın 20246-30[16] Cinsi bərabərlik Strategiyası əsasında yaradılmış və 2024-cü ilin iyun ayında qüvvəyə minən yeni 2024 Cinsi bərabərlik Strategiyasında hər kəsə qarşı cinsi bərabərliyin qlobal inkişafın başlıca məğzi kimi qəbul edilməsinə əsaslanan daha geniş ambisiyanın irəli sürülməsi təklif edilir.[17] Xüsusilə, Dünya Bankının 2024–2030-cu illər üçün yeni Cinsi bərabərlik strategiyası qadınlara və qızlara qarşı ən çox yayılmış və kök salmış hal olan cinsi zorakılıqla mübarizə yollarının gücləndirilməsi məqsədi daşıyır.

# VI. Cinsi istismar, zorakılıq və əsarətdən qoruma (CİZƏ) və Uşaqların müdafiəsi siyasəti

### A. Dünya Bankı Qrupunun əməkdaşlarına şamil edilən CİZƏ siyasət və prosedurlar[18]

---

[16] https://documents1.worldbank.org/curated/en/099061124182033630/pdf/BOSIB17e6952570c51b49812a89c05be6a4.pdf

[17] Cinsi bərabərlik və iqtisadi inklüzivlik | Beynəlxalq Maliyyə Korporasiyası (IFC) | www.ifc.org/gender

[18] Məlumatda Dünya Bankı Qrupunun sənədin yazılma tarixinə qüvvədə olan CİZƏ siyasət və prosedurları əks olunur və bu məlumat istinad edilən siyasət və prosedurların tam mətninə tabedir.

### 1. Profilaktik tədbirlər

Dünya Bankı Qrupunun (WBG) əsarət və zorakılıqdan azad, təhlükəsiz iş mühitinin yaradılması ilə bağlı qəti öhdəliyi vardır. Bu öhdəliklər Dünya Bankı Qrupunun Əməkdaşlar üçün qaydaları və Əxlaq kodeksində əks etdirilmiş olub, WBG əməkdaşlarının cinsi istismar, habelə zorakılıq və cinsi əsarət (CİZƏ) hallarında iştirakını xüsusilə qadağan edir. Dünya Bankı Qrupunun Əməkdaşlar üçün qaydaları və Əsarətlə mübarizə təlimatlarında cinsi əsarət anlayışının tərifi verilir, cinsi əsarət və əməkdaşların nalayiq davranışı hesab edilə bilən davranışlar sadalanır, həmçinin Direktorlar şurasının cinsi əsarətlə bağlı nümunəvi siyasətinə əsasən, rəsmi səfərlər və işlə bağlı sosial fəaliyyətlər daxil olmaqla "iş yeri" müəyyən edilir.

Bundan əlavə Dünya Bankı Qrupu kənar təchizatçılarla müqavilələrində CİZƏ risklərini də nəzərə alır. Dünya Bankı Qrupunun Korporativ təchizat departamenti Təchizatçının ofis əməkdaşları üçün yenilənmiş Davranış kodeksi hazırlamışdır. Kodeksə əsasən Təchizatçının əməkdaşlarına cinsi əsarət daxil olmaqla, əsarətin istənilən formalarında iştirak etmək qəti qadağan edilir. Bundan əlavə bu tələblərin əksəriyyəti Dünya Bankı Qrupunun Ümumi Şərt və qaydalarına daxil edilmişdir. Müqavilənin bağlanmasından öncə Dünya Bankı Qrupunun Korporativ təchizat komitəsi risk səviyyəsi və dəyəri yüksək olan müqavilələri nəzərdən keçirir və CİZƏ risklərinin kifayət dərəcədə azaldılmasını təmin edir.

## B. BMK sərmayələri və məsləhət xidmətləri ilə bağlı siyasət və prosedurlar

### 1. BMK-nın icra standartlarının əsas məqamları

BMK dayanıqlılıq üzrə iş çərçivəsində (son dəfə 1 yanvar 2012-ci il tarixində yenilənmişdir) BMK sərmayələri və məsləhət xidmətlərinin təsirinə məruz qalan insanları qorumağa çalışır. BMK-nın ekoloji və sosial dayanıqlılığa dair siyasətində BMK-nın biznes fəaliyyətləri çərçivəsində genderlə bağlı risklərin və BMK-nın maliyyələşdirdiyi layihələrdə fərqli cinslərdən olan insanlar arasında qərəzsiz cinsi fərqləndirmənin təsirinin azaldılması ilə bağlı gözləntiləri qeyd edilmişdir.

BMK-nın icra standartları müştərilərə qeyri-ayrıseçkilik, bərabər imkanlar və maraqlı tərəflərin inklyuziv cəlb edilməsi prinsiplərinin tətbiqi və daha da artan cinsi zorakılıq və əsayiş hallarını layihə fəaliyyətləri vasitəsilə azaltmaq və ya dəf etmək məqsədilə özünümühafizə tədbirlərinin mənimsənilməsi ilə qarşılaşdıqları riskləri dayanıqlı yollarla dəf etmək, azaltmaq və idarə etməyə kömək olaraq hazırlanmış olub, genderlə bağlı riskləri, təsirləri və inkişaf imkanlarını qiymətləndirmək və idarə etmək öhdəliyini müştərilərin üzərinə qoyur. BMK-nın Gender strategiyasında (2017) cinsi zorakılıq və əsayiş (CZƏ) məsələləri, habelə BMK-nın sərmayə layihələrində genderlə bağlı risklərin qiymətləndirilməsinə birbaşa istinad edilir.[19]

Bu səbəbdən CİZƏ ilə bağlı potensial risklər və əlaqədar dəfetmə və azaltma tədbirləri layihənin erkən mərhələlərində müştəri tərəfindən müəyyən edilməli və layihənin icra müddəti ərzində nəzarətdə saxlanmalıdır. Bu müəyyənləşdirmə prosesini dəstəkləmək məqsədilə ümumi mütləq təhlil çərçivəsində layihənin hazırlıq mərhələsində əməkdaşlara CİZƏ risklərinin erkən müəyyən edilməsində kömək etmək üçün BMK Gender və CZ ilə bağlı risklərin araşdırılması aləti hazırlamış və gələcəkdə müştəriləri dəstəkləmək üçün texniki icra dəstəyi qrupu yaratmışdır.

---

[19] BMK, AYİB, CDC tərəfindən hazırlanmış (2020) "Cinsi zorakılıq və əsayiş məsələlərinin həll edilməsi və özəl sektorlarda tətbiq edilməsi" bəyanat (https://www.ifc.org/en/insights-reports/2020/publications-gpn-addressinggbvh), səhifə 17

BMK-nın dayanıqlılıq siyasəti, paraqraf 13: "BMK sağlam iqtisadi artıma və yoxsulluğun azaldılmasına nail olmaqda qadınların mühüm rol oynadığına inanır. Onlar özəl sektorun inkişafının mühüm hissəsidir. BMK öz müştərilərindən biznes fəaliyyətləri ilə bağlı cinsi bərabərlik risklərini və qərəzsiz cinsi fərqləndirmə hallarının təsirlərini minimuma endirməyi gözləyir. Cinsi bərabərsizlik səbəbindən qadınların çox vaxt öz iqtisadi potensiallarını reallaşdıra bilməməsini qəbul edərək, BMK sərmayə yatırımı və məsləhətlər vasitəsilə qadınlar üçün imkanlar yaratmağa çalışır".[20]

İqlim dəyişikliyi, cinsi bərabərlik, insan hüquqları və su təchizatı kimi bir sıra kəsişən mövzular bir çox Fəaliyyət standartında ünvanlandırılır."[21] 1-ci fəaliyyət standartına əsasən "Xüsusi müəyyən edilmiş fiziki elementlər, aspektlər və təsir yaratma ehtimalı olan obyektlər layihəyə cəlb edildikdə və risk və təsirlərin müəyyən edilməsi prosesinin bir hissəsi kimi müştəri əlverişsiz şəraiti yaxud həssaslıq statusu səbəbindən layihənin birbaşa və differensial və ya qeyri-bərabər təsirinə məruz qalan fərdlər və qrupları müəyyən etməlidir[18]. Bu əlverişsiz və ya həssas status fərdin və ya qrupun irqindən, rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər baxışlarından, milli və ya sosial mənşəyindən, əmlakından, doğuluşundan və ya digər statusundan qaynaqlana bilər. Müştəri həmçinin cins, yaş, etnik mənsubiyyət, mədəniyyət, savad, xəstəlik, fiziki və ya əqli əlillik, yoxsulluq və ya əlverişsiz iqtisadi vəziyyət, unikal təbii sərvətlərdən asılılıq kimi amilləri də nəzərə almalıdır".[22]

Məsələn, geniş miqyaslı inşaat layihələrində müqavilə və podrat müqavilələri üzrə işləyən əməkdaşların əksəriyyətinin çox vaxt daha yüksək ümumi gəliri olan və yerli miqyasda daha yüksək əmək haqqı alan, həmçinin çox vaxt ev sahibi olan icma və ya layihə zonasından kənar ərazidən miqrasiya etmiş kişilər olduğu aşkar edilmişdir. Bu cür hallar ev sahibi olan yerli icmada gəlir və imtiyaz bərabərsizliyinə təkan verir və işçi qüvvəsinin axını səbəbindən cinsi istismar və əsayiş (CİƏ), habelə cinsi zorakılıq (CZ) risklərini artıran qeyri-bərabər güc dinamikasını artırır. CİƏ və CZ hallarının bu cür təzahürləri qadınlar və uşaqların cinsi əsayişdən cinsi istismarına və onlara qarşı cinsi zorakılığa qədər geniş sahəni ehtiva edə bilər. Podratçılar bu cür riskləri aradan qaldırmaq üçün davranış kodeksi və müntəzəm maarifləndirici təlimlər, həmçinin ictimaiyyətlə əlaqələr daxil olmaqla, müvafiq tədbirlər görməlidir. Podratçıların/əməkdaşların 18 yaşına çatmamış uşaqlarla (yerli qanunlardan asılı olmayaraq) heç bir cinsi əlaqədə olmamalı olduqları bu cür tədbirlərdə aydın şəkildə qeyd edilməlidir. Podratçı şirkətlər, podratçı şirkətlərin rəhbərləri və əməkdaşlara müxtəlif davranış kodeksləri şamil ediləcək.[23]

## 2. BMK-nın CİZƏ məsələlərinə dair maarifləndirmə materialları və profilaktik tədbirləri

BMK özəl sektora aid şirkətlərə CİZƏ ilə mübarizədə dəstək olmaq və qabaqcıl təcrübələrini təşviq etmək məqsədilə informasiya resursları, alətlər, tövsiyələr, nümunə araşdırmaları və sənaye təlimatları dərc etmişdir. BMK, AYİB, CDC tərəfindən hazırlanmış "Cinsi zorakılıq və əsayiş məsələlərinin həll edilməsi və özəl sektorlarda qabaqcıl təcrübələrin tətbiq edilməsi" başlıqlı Bəyanatında (2020) şirkətlər, həmçinin BMK əməkdaşları üçün təlimatlar qeyd edilmişdir. Bu sənədlə yanaşı aqrobiznes, tikinti və ictimai nəqliyyat da daxil olmaqla, ayrı-ayrı sektorlar üzrə təlimatlar da təqdim edilmişdir. BMK alətlər dəstinə daxil olanlar: Cinsi istismar, zorakılıq və əsayişə dair şikayət və icma əsaslı əks-əlaqə mexanizmlərinin işlənib

[20] BMK-nın (2012) dayanıqlılıq siyasəti, paraqraf 13.
[21] BMK-nın (2012) fəaliyyət standartları, paraqraf 4.
[22] BMK-nın (2012) 1-ci fəaliyyət standartı, paraqraf 12.
[23] IFC (2017) *Good Practice Note: Managing* Contractors' Environmental and Social Performance. https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/p-gpn-escontractormanagement.pdf

hazırlanmasında və idarə olunmasında dəstək məqsədilə şirkətlərə CİZƏ ilə bağlı xüsusi tövsiyələr. BMK-nın bu texniki resurslarında bu müxtəlif əməliyyat növlərinin tərkib hissəsi olan xüsusi risk amilləri və imkanları, eləcə də qurbanların hüquqları, təhlükəsizlik və məxfiliyi bütün hərəkətlərin önünə çəkərək, xilas olanlara yönəlmiş yanaşmanı nəzərə almaqla CİZƏ üzrə əsas risklərin müəyyən edilməsinə və zərərin azaldılması və ya minimuma endirilməsi tədbirlərinin görülməsinə yönəlmiş yanaşmalara diqqət yetirilir. BMK direktorlar şuraları üçün cinsi zorakılıq və əsayiş risklərinə nəzarət üzrə təlimatları daxil olmaqla (2023), bir sıra təlimlər və resurslar vasitəsilə CİZƏ ilə bağlı texniki dəstəyini direktorlar şuralarını və yüksək səviyyəli şirkət rəhbərliyini ehtiva edəcək dərəcədə genişləndirdi. Bu texniki təlimat qeydləri qabaqcıl təcrübələrin təşviq edilməsi məqsədilə daha sonra BMK tərəfindən bazar və sənaye səviyyələrində tətbiq edilir.

### 3. Şikayət proseduru

BMK tərəfindən layihələndirilən layihələrin təsirinə məruz qalan icmalar və fərdlər şikayətlərini birbaşa BMK və ya BMK və MIGA üzrə müstəqil hesabatlılıq mexanizmi olan Uyğunluq üzrə Müşavir/Ombudsman İdarəsinə (CAO) bildirə bilər.

Qisasdan mühafizə: BMK qisasın qarşısını alma və bütün maraqlı tərəflərin şikayət etmək hüququna malik olması kimi qabaqcıl təcrübəyə sadiq qalır. Özəl sektor üçün qabaqcıl təcrübə bəyanatı BMK-nın IDB-Invest ilə əməkdaşlıqda hazırladığını (2021) “Layihənin maraqlı tərəflərinə qarşı qisas risklərinin qarşısının alınması” sənədində xüsusilə qisas riskləri ilə kəsişə bilən münaqişəsonrası məzmunda CİZƏ risklərinin artmasının qarşısının alınması və qiymətləndirilməsi ilə bağlı narahatlıqlar qeyd edilir. BMK CİZƏ bəyanatlarının tənzimlənməsi zamanı xilas olanlara yönəlmiş yanaşmanı təşviq edir.

## C. Uşaqların müdafiəsi ilə bağlı siyasətlər və prosedurlar

Bir çox inkişaf etməkdə olan bazarlar və inkişaf kontekstlərində uşaq əməyi problemləri də daxil olmaqla, uşaqların üzləşdiyi xüsusi riskləri və zəiflikləri dərk edərək, BMK BMT-nin Uşaq Hüquqları Konvensiyasının (UNCRC) məğzinə və prinsiplərinə uyğun çərçivələrdən istifadə etməklə bu cür riskləri azaltmağa çalışır. Dünya Bankı Qrupunun layihələri çərçivəsində müəyyən edilmiş davranış kodeksləri və davranış standartları CİZƏ-in beynəlxalq təriflərini qəbul edir və ölkədə müəyyən edilmiş razılıq yaşından asılı olmayaraq, məşğulluq şərti kimi 18 yaşına çatmamış uşaqlarla hər hansı cinsi əlaqəni qadağan edir. BMK-nın icra standartlarına əsasən müştəridən sosial risklər və layihənin təsirlərini nəzərə almaq tələb edilir. Məsələn, BMK-nın icra standartına (paraqraf 12) əsasən müştərilərdən layihənin təsirinə məruz qalmış qruplar və fərdləri müəyyən etmək və onların ehtiyaclarına cavab vermək üçün xüsusi və ya qəbul edilmiş yüngülləşdirmə tədbirləri tətbiq etmək tələb olunur.

Şübhəli hallar baş verdikdə və ya uşaqlara ziyan vurulması halları barədə şikayət edildikdə, BMK-nın uşaqların müdafiəsi ilə bağlı tədbirləri həmçinin qüvvədə olan qaydalar, prosedurlar və siyasətlərlə idarə edilir. Bütün müvafiq tədbirlər və çevik reaksiya prosedurları xilas olanlar və uşaqlarla bağlı həssaslıq nöqteyi nəzərindən şikayətlərə baxılması məsələsinə yanaşma prinsiplərinə əsaslanır (Cinsi zorakılıq və əsayiş məsələlərinin həll edilməsi və özəl sektorlarda tətbiq edilməsi bəyanatında qeyd edildiyi kimi). Uşaqların həssaslığının nəzərə alınması ilə şikayət mexanizmləri və uşaqların maraqlarının qorunması proseslərin yaradılması üzrə təlimat BMK alətlər dəstinə daxil edilmişdir: Şirkətlərə cinsi istismar, zorakılıq və əsayişə dair şikayət və icma əsaslı əks-əlaqə mexanizmlərinin işlənib hazırlanmasında və idarə olunmasında dəstək.

**BMK-nın CİZƏ ilə bağlı əlavə təlimatları:**

- BMK, AYİB, CDC tərəfindən hazırlanmış "Cinsi zorakılıq və əsayiş məsələlərinin həll edilməsi və özəl sektorlarda tətbiq edilməsi" bəyanatı (https://www.ifc.org/en/insights-reports/2020/publications-gpn-addressinggbvh).
  - İcma səviyyəsində cinsi istismar və zorakılıqla bağlı şikayət mexanizmini inkişaf etdirmək
  - Əməkdaşlar arasında cinsi əsayişlə bağlı şikayət mexanizmini yaratmaq və idarə etmək
  - Cinsi istismarın və zorakılığın qarşısını almaq üçün Əməkdaşların davranış kodeksini tərtib və tətbiq etmək
  - Cinsi əsayişin qarşısını almaq üçün İş yeri ilə bağlı siyasət tərtib və tətbiq etmək
- BMK (2022) alətlər dəstinə daxil olanlar: Şirkətlərə cinsi istismar, zorakılıq və əsayişə dair şikayət və icma əsaslı əks-əlaqə mexanizmlərinin işlənib hazırlanmasında və idarə olunmasında dəstək (ifc.org)

BMK-nın (2023) məsləhət vərəqəsi: Cinsi zorakılıq və əsayiş risklərinə nəzarət etmək üçün direktorlar şuraları üçün təlimat

# VII. LAYİHƏNİN HAZIRLANMASI VƏ HƏYATA KEÇİRİLMƏSİ ZAMANI EvəS RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

## A. Ekoloji və sosial ekspertiza

Sərmayə yatırma fəaliyyətinə ümumi yanaşma: Ekoloji və sosial ekspertiza BMK-nın bütün sərmayə fəaliyyətlərinə tətbiq edilir. BMK-nın ekoloji və sosial ekspertizası maliyyə və nüfuz risklərinin nəzərdən keçirilməsi də daxil olmaqla, biznes fəaliyyəti ilə bağlı BMK-nın ümumi ekspertizasına inteqrasiya olunub. BMK təklif olunan biznes fəaliyyətinin xərclərini və faydalarını qiymətləndirir və təklif olunan fəaliyyət üçün rasional və xüsusi şərtləri idarə edir. Sərmayə yatırma fəaliyyəti təsdiq üçün təqdim edildikdə bunlar BMK-nın Direktorlar Şurasına təqdim olunur.

BMK yalnız məqbul müddət ərzində Fəaliyyət standartlarının tələblərinə cavab verməsi gözlənilən sərmayə yatırma fəaliyyətini maliyyələşdirəcək. Bu tələblərin yerinə yetirilməsində davamlı gecikmələr BMK-dan maliyyə dəstəyinin itirilməsinə səbəb ola bilər.

Bəzən müştərinin Fəaliyyət standartlarına uyğun ekoloji və ya sosial nəticələrə nail olmaq qabiliyyəti üçüncü tərəfin hərəkətlərindən asılı olacaq. Üçüncü tərəf tənzimləyici səlahiyyətə malik və ya müqavilə ilə cəlb edilən dövlət idarəsi, biznes fəaliyyətin aparıldığı podratçı və ya ilkin təchizatçı yaxud əlaqədar obyektin operatoru (1-ci fəaliyyət standartında qeyd edildiyi kimi) ola bilər. Fəaliyyət standartlarına uyğun nəticələr əldə etmək üçün BMK keçirdiyi ekspertiza çərçivəsində müştərinin üçüncü tərəflərlə bağlı riskləri aşkarlamasına nəzarət edəcək və bu risklərin idarə edilə bilən olub-olmadığını və idarə edilə bilən olduqda, buna müvafiq şərtləri müəyyən edəcək. Müəyyən risklərlə bağlı BMK-nın təklif edilən biznes fəaliyyəti dəstəkləməməsi tələb edilə bilər.

BMK-nın müştərilərin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı müqavilələrinə müştərilərin riayət etmək öhdəliyi olan xüsusi müddəalar daxil edilir. Buraya fəaliyyət planına daxil edilən Fəaliyyət standartlarının tələbləri və xüsusi şərtlərə, o cümlədən ekoloji və sosial hesabatlılıq üzrə müvafiq müddəalara riayət etmək və BMK əməkdaşları və ya nümayəndələrinin müvafiq qaydada müşahidə səfərləri daxildir. Müştəri hüquqi

müqavilədə və əlaqədar sənədlərdə ifadə edilmiş bu ekoloji və sosial öhdəliklərini icra etmədikdə, BMK müştəriyə öhdəliklərin icrasında yardım edəcək və müştəri yenidən öhdəliklərini icra edə bilmədikdə, BMK hüquq və tədbirlərini müvafiq qaydada tətbiq edəcək.

BMK müştəridən bizneslərində baş verən ciddi dəyişiklik və ya BMK-nın Şuranın təsdiqi aldığı müddətə olan biznes sahəsindən ciddi şəkildə fərqlənən yeni biznes sahəsinə başlama planlarını BMK-ya bildirməyi tələb edir. Bu cür hallarda BMK yeni biznes sahəsinin ekoloji və/yaxud sosial risk və/və ya təsirləri olub-olmadığını qiymətləndirəcək və bu cür risk və təsirlər olduqda BMK müştəridən Ekoloji və Sosial İdarəetmə Sistemini (ESİS) (i) bu yeni bizneslərin maddi dəyişiklikləri ilə əlaqədar potensial ekoloji və sosial risk və təsirlərə; (ii) bu siyasətə; və (iii) Fəaliyyət standartlarının müvafiq tələblərinə uyğun şəkildə tənzimləməyi tələb edəcək. BMK müştəridən bu yeni biznes sahələrində maliyyələşdirilən fəaliyyətlərlə bağlı ekoloji və sosial ekspertizasının nəticələrini təmin etməyi tələb edə bilər.

Bu bölmənin və qüvvədə qalan alt-bölmələrin götürüldüyü Ekoloji və Sosial Dayanıqlıq Siyasətinin tam mətni ilə aşağıdakı linklə keçərək tanış olmaq olar: https://www.ifc.org/en/insights-reports/2012/publications-policy-sustainability-2012

Həmçinin https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/ifc-process.pdf sənədinə baxın.

## 1. Birbaşa sərmayələr

BMK-nın ekoloji və sosial ekspertizası biznes fəaliyyətinin xarakteri, miqyası və mərhələsinə və ekoloji və sosial risk və təsirlərin səviyyəsinə müvafiq keçirilir. BMK dizayn, tikinti və ya əməliyyat mərhələlərində BMK dəstəyi tələb edən bütün yeni birbaşa sərmayələrin ekspertizasını keçirir. Ekspertiza keçirildiyi zaman vəsaitlərdən təklif edilən şəkildə istifadə məlum olmadıqda, BMK-nın risk idarəetmə mülahizələrinin bir hissəsi olaraq, BMK-nın ekoloji və sosial ekspertiza sahəsi müştərinin bütün biznes fəaliyyətlərini ehtiva edəcək şəkildə genişləndirilməlidir. Biznes fəaliyyəti ilə bağlı başqalarının səbəb olduğu keçmiş və ya cari mənfi təsirlər daxil olmaqla, mühüm ekoloji və sosial təsirlər mövcud olduqda BMK müştəri ilə birgə mümkün həll tədbirlərini müəyyən edir.

BMK-nın müştərinin biznes fəaliyyətinə sərmayə yatırma müddəti tranzaksiyadan asılı olaraq fərqlənir. BMK çox vaxt biznes fəaliyyətinin başlamasından, obyektin seçilməsindən və inkişaf prosesinin işə salınmasından uzun müddət sonra cəlb edilə bilər. Bu hallarda, BMK artıq mövcud olan ESİS və risk idarəetmə təcrübələrini, o cümlədən müştərinin və/yaxud üçüncü tərəfin BMK sərmayəsi ilə bağlı mülahizələrindən öncə keçirdiyi ekoloji və sosial qiymətləndirmə və icma ilə qarşılıqlı əlaqələri nəzərdən keçirəcək. BMK sərmayə layihəsinin ilkin mərhələlərində cəlb edildikdə, xüsusi risk və təsirlərin qarşısının alınması və həll edilməsi; imkanların müəyyən edilməsi; və bunların sərmayə yatırımı dövründə idarə edilməsində BMK müştəriyə daha səmərəli şəkildə yardım edə bilər.

Ekoloji və sosial ekspertiza adətən aşağıdakı əsas komponentləri ehtiva edir: (i) biznes fəaliyyətinin ekoloji və sosial riskləri və təsirləri ilə bağlı bütün mövcud məlumatların, qeydlərin və sənədlərin nəzərdən keçirilməsi;(ii) müvafiq olduqda, müştərinin əməkdaşları və müvafiq maraqlı tərəflər arasında yoxlamaların və müsahibələrin aparılması; (iii) müvafiq hallarda Dünya Bankı Qrupunun Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühit Təlimatlarının və ya digər beynəlxalq səviyyədə tanınmış mənbələrin Fəaliyyət standartlarının və müddəalarının tələbləri ilə əlaqədar biznes fəaliyyətinin ekoloji və sosial fəaliyyətinin təhlili; və (iv) mövcud olan hər hansı boşluqların və müştərinin mövcud idarəetmə təcrübələri ilə müəyyən edilənlərdən kənar müvafiq əlavə tədbir və hərəkətlərin müəyyən edilməsi. Biznes fəaliyyətinin Fəaliyyət standartlarına cavab

vermәsini tәmin etmәk üçün BMK bu әlavә tәdbirlәri (Ekoloji vә Sosial Fәaliyyәt Planı) BMK-nın sәrmayәsinin zәruri şәrtlәri qismindә tәtbiq edir.[24]

Biznes fәaliyyәti çәrçivәsindә gәlirlәrdәn müәyyәn qaydada istifadә edildikdә vә ekoloji vә sosial tәsirlәr dәqiq müәyyәn edildikdә, BMK-nın ekoloji vә sosial risklәrin idarә edilmәsinә dair tәlәblәri BMK tәrәfindәn tәmin edilәn vәsaitlә maliyyәlәşdirilәn biznes fәaliyyәtlәrә tәtbiq edilәcәk. Buna baxmayaraq BMK müştәrilәrinә bütün әmәliyyatlarında ekoloji vә sosial risklәri müntәzәm şәkildә idarә etmәyi tövsiyә edәcәk.

Maliyyәlәşdirilmәli olan biznes fәaliyyәtin icmalara potensial mühüm mәnfi tәsirlәri ola bilәcәyi (yәni, Zәrәr çәkmiş icmalar) yaxud Yerli әhali üçün potensial mәnfi tәsirlәri olacağı ehtimal edildikdә, BMK müştәridәn Mәlumatlı mәslәhәt vә İştirak (MMİ) prosesindә iştirak etmәyi tәlәb edәcәk. Bu cür hallarda BMK müstәqil şәkildә araşdırma apararaq müştәrinin icma ilә qarşılıqlı әlaqәlәrinin MMİ prosesini ehtiva edәn vә Zәrәr çәkmiş icmaların iştirakını tәmin edәn olub-olmadığını müәyyәn edәcәk vә bu da öz növbәsindә, Zәrәr çәkmiş icmaların biznes fәaliyyәtinin Geniş İctimai Dәstәk almasına sәbәb olacaq. Geniş İctimai Dәstәk Zәrәr çәkmiş icmaların tәklif olunan biznes fәaliyyәtini dәstәklәyәn fәrdlәri vә ya mәlum nümayәndәlәri vasitәsilә ifadә etdiklәri kollektiv yardımdır. Bәzi fәrdlәr vә ya qruplar biznes fәaliyyәtinә etiraz etdiyi halda belә GİD mümkün ola bilәr. Biznes fәaliyyәti Şura tәrәfindәn tәsdiq edildikdәn sonra BMK portfelә nәzarәt çәrçivәsindә müştәrinin icma ilә qarşılıqlı әlaqә prosesini yoxlamağa davam edir.

Bundan әlavә tәklif olunan biznes fәaliyyәti 7-ci fәaliyyәt standartının Yerli әhalinin Müstәqil, İlkin vә Mәlumatlı Razılığına dair tәlәbini pozarsa, BMK müştәrinin ekoloji vә sosial ekspertiza çәrçivәsindә keçirdiyi prosesin dәrin yoxlanılmasını keçirәcәk.

## B. Ekoloji vә sosial tәsnifat

Tәklif olunan sәrmayәnin ekoloji vә sosial risk vә tәsirlәrinin yoxlanılması prosesi çәrçivәsindә BMK risk vә tәsirlәrin miqyasını әks etdirmәk üçün ekoloji vә sosial tәsnifatlaşdırma prosesindәn istifadә edir. Son kateqoriyada BMK-nın İnformasiyaya Çıxış Siyasәtinә әsasәn mәlumatın açıqlanmasına dair institusional tәlәblәri dә qeyd edilir. Bu kateqoriyalar aşağıdakılardır:

A kateqoriyası: Potensial әhәmiyyәtli müxtәlif, bәrpa olunmaz vә ya misilsiz mәnfi ekoloji vә ya sosial risklәr vә/yaxud tәsirlәri olan biznes fәaliyyәtlәr.

B kateqoriyası: Potensial mәhdud, azsaylı vә ümumiyyәtlә sahәyә xas olan, hәmçinin әsasәn bәrpa edilә bilәn vә fәsadların yüngüllәşdirilmәsi tәdbirlәri vasitәsilә asanlıqla aradan qaldırıla bilәn ekoloji vә ya sosial risklәr vә/yaxud mәnfi tәsirlәri olan biznes fәaliyyәtlәr.

---

[24] Davamlı su infrastruktur fondunun şәrtlәrinә әsasәn BMK borcalanlarla Davamlı su infrastruktur fondunun layihәlәri çәrçivәsindә müqavilәlәr bağlayaraq, onlardan BMK-nın yerli әhali ilә bağlı siyasәt vә prosedurlara әmәl etmәyi tәlәb edәcәk vә bu tәlәblәrә әsasәn borcalanlar Davamlı su infrastruktur fondunun layihәlәrinin icraçı qurumları olaraq YİK-nin Yerli әhali ilә bağlı siyasәtinin (YӘS) tәlәblәrinә cavab verә, bu cür tәlәblәrә cavab verilmәsi hallarına nәzarәt edә vә tәlәblәrә cavab verilmәdiyi halda Amerika Tibb Asossiasiyasının tәlәblәrinә әsasәn ağlabatan tәdbirlәr görә bilәcәk.

C kateqoriyası: Ekoloji və ya sosial risk və/yaxud təsirləri minimal olan və ya heç olmayan biznes fəaliyyətlər."

Ətraflı məlumat almaq üçün BMK-nın EvəS kateqoriyaları ilə bağlı izahat qeydlərinə (1 yanvar 2012-ci il tarixli) baxın[25]

### C. Nəzarət

BMK portfelə nəzarət proqramı çərçivəsində sərmayə və məsləhət fəaliyyətini yoxlamaq üçün aşağıdakı tədbirləri tətbiq edir:

Birbaşa sərmayələr

- BMK-nın Ekoloji və Sosial Nəzarət Prosedurlarının tələblərinə uyğun olaraq ekoloji və sosial risklər və/yaxud təsirləri olan biznes fəaliyyətlərinə müntəzəm nəzarət proqramının həyata keçirilməsi.
- Sərmayələrə dair ekoloji və sosial şərtlərə və müştərinin öhdəliklərinə uyğun olaraq icra fəaliyyətinin (müştərinin İllik Monitorinq Hesabatında bildirildiyi kimi) və Ekoloji və Sosial Fəaliyyət Planına dair yeniləmələrin nəzərdən keçirilməsi. Müvafiq olduqda, dayanıqlıq məsələsində müştəri fəaliyyətinin daha da yaxşılaşdırılması imkanlarının müəyyən edilməsi və nəzərdən keçirilməsi.
- Biznes fəaliyyətinin dəyişmiş şərtlərinin ekoloji və ya sosial təsirlərin dəyişməsi və ya sərtləşməsi ilə nəticələnmə ehtimalı olduqda, BMK onları həll etmək yolunda müştəri ilə əməkdaşlıq edəcək.
- Müştəri sərmayə üçün ekoloji və sosial şərtlərdə ifadə edilmiş bu ekoloji və sosial öhdəliklərini icra etmədikdə, BMK müştəriyə öhdəliklərin mümkün dərəcədə icrasında yardım edəcək və müştəri yenidən öhdəliklərini icra edə bilmədikdə, BMK müvafiq tədbirlər görəcək.

## VIII. İnformasiyaya Çıxış Siyasəti (İÇS)[26]

Ekoloji və sosial məlumatlar. Fəaliyyət standartlarına uyğun olaraq, BMK öz müştərilərindən layihələrinin bu cür maraqlı tərəflər üçün yaratdığı risklərə və təsirlərə uyğun şəkildə Zərər çəkmiş icmalarla (o cümlədən, məlumatların açıqlanması yolu ilə) əlaqə saxlamağı tələb edir. BMK aşağıdakı ekoloji və sosial məlumatların ictimai şəkildə açıqlanmasını təmin edir: (A) Birbaşa sərmayələr. Təklif edilən A və B kateqoriyalı layihələrin hər biri üçün BMK yoxlama zamanı aşkarlanan nəticələr və tövsiyələrin xülasəsini, yəni, Ekoloji və Sosial Yoxlama Xülasəsini (ESYX) açıqlayır. ESYX-nə aşağıdakılar daxildir: (i) UMO daxil olmaqla, Fəaliyyət standartlarına və hər hansı müvafiq şikayət mexanizmlərinə istinad; (ii) BMK-nın layihənin təsnifatının əsasları; (iii) layihənin əsas ekoloji və sosial riskləri və təsirlərinin təsviri; (iv) Layihəni fəaliyyət standartlarına və ya BMK, Ekoloji və Sosial Fəaliyyət Planına (ESFP) uyğun şəkildə həyata keçirmək üçün görülməli olan hər hansı əlavə tədbirləri qeyd etməklə, həmin riskləri və təsirləri azaltmaq üçün müəyyən edilmiş əsas tədbirlər; (v) layihə çərçivəsində 25 000 MT $CO_2$ göstəricisini aşması gözlənilən istixana emissiyaları; (vi) müştəri tərəfindən və ya onun adından hazırlanmış hər hansı müvafiq Ekoloji və Sosial Təsirin Qiymətləndirilməsi (ESTQ) sənədlərinin elektron surətləri və ya veb keçidləri; və

(vii) yerli əhalinin Müstəqil, İlkin və Məlumatlı Razılığının (MİMR) yoxlanılmasının tələb olunduğu layihələr üçün həmin razılıq prosesinin statusunun təsviri.

---

[25] Microsoft Word - EvəS kateqoriyalarına dair İzahat qeydi_21 dekabr.docx (ifc.org)

[26] Məsuliyyətdən imtina - İnformasiyaya Çıxış Siyasəti (İÇS) (ifc.org)

Ekoloji və ya sosial risk və/və ya mənfi təsirlərinin minimal olacağı və ya heç olmayacağı gözlənilən sərmayələr istisna olmaqla, hər bir sərmayə üçün BMK aşağıdakı ekoloji və sosial məlumatları ESYX və ya İnvestisiya məlumatlarının xülasəsinə (əlçatan olduqca) əlavə edəcək:

(a) Sərmayənin təsdiqindən sonra BMK-nın Direktorlar Şurası (və ya digər müvafiq daxili orqan) tərəfindən hazırlanmış olub,
BMK tərəfindən tələb olunan hər hansı ESFP; və

(b) BMK tələb etdiyi hallarda ESFP-nın həyata keçirilmə statusu.

A və B kateqoriyalı sərmayələr üçün BMK müvafiq olduqda, həmçinin aşağıdakıları əlçatan edəcək:

(c) BMK tərəfindən nəzərdən keçirilən hər hansı ESTQ-lər (əlçatan olduqca); və

(d) Fəaliyyət standartlarına uyğun olaraq BMK tərəfindən tələb edilən hallarda üçüncü tərəfin monitorinq hesabatları.

İnformasiyaya Çıxış Siyasətinin tam mətni ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq olar:https://www.ifc.org/content/dam/ifc/doc/2010/2012-ifc-access-to-information-policy-en.pdf

# IX. Şikayətlərə baxış proseduru

## A. BMK-nın Şikayətlərə baxış mexanizmi[27]

Müsbət EvəS nəticələrinə nail olmaq və BMK-nın öhdəliklərinə sadiqliyini nümayiş etdirmək üçün kənar maraqlı tərəflərin ekoloji və sosial şikayətlərinə cavab vermək çox vacibdir. BMK EvəS ilə bağlı şikayətləri cavablandırmaq üçün institusional səviyyədə şikayətlərə baxış mexanizmi yaratmışdır. EvəS ilə bağlı şikayət olduqda BMK şikayətçilərlə əlaqə saxlayır və müştərilərlə birgə ən qısa və ən səmərəli surətdə EvəS ilə bağlı narahatlıqları aradan qaldırmağa çalışır.

## B. Uyğunluq üzrə Müşavir/Ombudsman[28]

BMK Zərər çəkmiş icmaların müvafiq şikayət və narahatlıqlarının ünvanlandırılması üçün lazımi mexanizm və/yaxud prosedurların yaradılması və idarə edilməsini tələb edərək biznes fəaliyyətləri əsnasında yaranan ekoloji və sosial problemlərin həllində müştərilərinə yardım edir. Bu mexanizm və prosedurlardan əlavə ev sahibi ölkədə mövcud olan inzibati və/yaxud hüquqi prosedurların köməyi də nəzərə alınmalıdır. Bunlara baxmayaraq BMK tərəfindən dəstəklənən biznes fəaliyyətlərdən zərər çəkmiş şəxslərin şikayət və narahatlıqlarının biznes fəaliyyəti səviyyəsində yaxud başqa mexanizmlər vasitəsilə tam həll edilməməsi də mümkün ola bilər.

---

[27] https://www.ifc.org/en/what-we-do/sector-expertise/sustainability/submitting-environmental-social-complaints-to-ifc

[28] Əsas səhifə | Uyğunluq üzrə Müşavir/Ombudsman İdarəsi (cao-ombudsman.org)

Öhdəliklərin mühümlüyünü və Zərər çəkmiş icmaların narahatlıqları və şikayətlərinin ədalətli, obyektiv və konstruktiv qaydada həll edilməli olduğunu qəbul edərək Uyğunluq üzrə Müşavir/Ombudsmanın (UMO) vasitəçiliyi ilə BMK tərəfindən dəstəklənən biznes fəaliyyətlərdən zərər çəkmiş fərdlər və icmaların müstəqil kənar idarə vasitəsilə narahatlıqlarını bildirmə imkanına malik olacaqları mexanizmi yaradılmışdır.

UMO BMK rəhbərliyindən asılı olmayan vasitəçi olub, birbaşa Dünya Bank Qrupunun Prezidentinə tabedir. UMO yerində ekoloji və sosial nəticələrin yaxşılaşdırılması və BMK-nın ictimaiyyət qarşısındakı öhdəliyini daha yaxşı icra etməsi məqsədilə BMK tərəfindən dəstəklənən biznes fəaliyyətlərdən zərər çəkmiş şəxslərin şikayətlərinə cavab verir. UMO mübahisələrin həlli bölməsinin köməyilə problemlərin həllinə çevik yanaşmadan istifadə edərək şikayətləri həll etməklə məşqul olur. Uyğunluq bölməsi vasitəsilə UMO özünün əməliyyat təlimatlarına əsasən BMK-nın ekoloji və sosial fəaliyyətinin layihə səviyyəli audit yoxlamalarına nəzarət edir.

Şikayətlər BMK tərəfindən dəstəklənən və UMO səriştəsi çərçivəsində olan biznes fəaliyyətlərin hər bir aspekti ilə bağlı ola bilər. Şikayətlər BMK tərəfindən maliyyələşdirilən biznes fəaliyyətinin ekoloji və ya sosial təsirlərinə məruz qalan və ya məruz qalma ehtimalı olan hər hansı bir fərd, qrup, icma, qurum və ya başqa şəxlər tərəfindən edilə bilər.

UMO Siyasətinin tam mətni ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq olar: https://www.ifc.org/en/about/accountability/cao-policy-consultation

# Əlavə 1. Əsas istinad sənədləri

BMK (2007) Əlaqəli şəxslərlə qarşılıqlı əlaqələr: Ümumi bazarlarda fəaliyyət göstərən şirkətlər üçün müsbət təcrübəyə dair məlumat kitabçası aşağıdakı keçiddən əldə edilə bilər: Maraqlı tərəflərlə qarşılıqlı əlaqələr:Ümumi bazarlarda fəaliyyət göstərən şirkətlər üçün müsbət təcrübəyə dair məlumat kitabçası aşağıdakı keçiddən əldə edilə bilər(ifc.org)

BMK (2012) BMK-nın Dayanıqlılıq üzrə İş planı - https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/ifc-sustainability-framework.pdf

BMK, AYİB, CDC tərəfindən hazırlanmış "Cinsi zorakılıq və asayiş məsələlərinin həll edilməsi və özəl sektorlarda tətbiq edilməsi" bəyanatı – https://www.ifc.org/en/insights-reports/2020/publications-gpn-addressinggbvh

BMK-nın (2017) Müsbət təcrübəyə dair qeyd: Podratçıların Ekoloji və Sosial Fəaliyyətinin idarə edilməsi https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/p-gpn-escontractormanagement.pdf

BMK-nın (2017) Müsbət təcrübə üzrə məlumat qeydi: Təhlükəsizlik qüvvələrindən istifadə: Risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi - https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/p-handbook-securityforces-2017.pdf

BMK və Sosial Öhdəlik üzrə Beynəlxalq (SÖB) (2007) Tədbirlər və Məşqulluq Standartları üzrə Göstəricilərin Yaxşılaşdırılması. İşçilər və iş şərtlərinə dair 2-ci fəaliyyət standartı üzrə məlumat qeydi - https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/sai-ifc-laborhandbook.pdf

BMK-nın (2023) müsbət təcrübə üzrə məlumat kitabçası – Torpaq sahələrinin əldə edilməsi və məcburi köçürülmə - https://www.ifc.org/content/dam/ifc/doc/2023/ifc-handbook-for-land-acquisition-and-involuntary-resettlement.pdf

BMK (2009) Layihədən Zərər çəkmiş icmaların Şikayətlərinin cavablandırılmasına dair müsbət təcrübə qeydi - https://www.ifc.org/content/dam/ifc/doc/mgrt/ifc-grievance-mechanisms.pdf.

BMK-nın (2022) Şirkətlərə cinsi istismar, zorakılıq və asayişə dair şikayət və icma əsaslı əks-əlaqə mexanizmlərinin işlənib hazırlanmasında və idarə olunmasında dəstəklə bağlı qabaqcıl təcrübə aləti – https://www.ifc.org/en/insights-reports/2022/publications-gender-grm-toolkit

BMK/Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyinin (2021) Müstəqil Öhdəlik Mexanizminə dair (UMO) siyasəti - https://www.ifc.org/content/dam/ifc/doc/2023/ifc-miga-independent-accountability-mechanism-cao-policy.pdf

BMK-nın (2021) məsləhət vərəqəsi: Təlimatlar:

- İcma səviyyəsində cinsi istismar və zorakılıqla bağlı şikayət mexanizmini inkişaf etdirmək
- Əməkdaşlar arasında cinsi əsayişlə bağlı şikayət mexanizmini yaratmaq və idarə etmək
- Cinsi istismarın və zorakılığın qarşısını almaq üçün Əməkdaşların davranış kodeksini tərtib və tətbiq etmək

- Cinsi əsayişin qarşısını almaq üçün İş yeri ilə bağlı siyasət tərtib və tətbiq etmək
- Cinsi zorakılıq və əsayiş məsələlərinin həll edilməsi və özəl sektorlarda qabaqcıl təcrübələrin tətbiq edilməsi